Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 94 (8117) ÇƏRŞƏNBƏ, 1 may 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Son 15 il ərzində iqtisadi baxımdan dünyada Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmayıb

## İLHAM ƏLİYEV yeni iqtisadi inkişaf modelinin qurulduğunu bəyan etdi

- Mən əminlik ifadə etdim ki, 2019-cu il ölkəmiz üçün uğurlu il olacaq. Biz ötən il keçirilmiş prezident seçkilərindən sonra islahatların yeni mərhələsinə qədəm qoyduq.
- Bu ilin birinci rübündə əldə edilmiş sosial və iqtisadi nəticələr göstərir ki, biz düzgün yoldayıq, islahatlara alternativ yoxdur. Son illər ərzində müxtəlif mərhələlərdə islahatlar aparılıb və bu islahatlar nəticəsində ölkəmiz inkişaf edib. Son 15 il ərzində iqtisadi baxımdan dünyada Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır.
- Prezident seçkilərindən sonra imzaladığım ilk fərman şəhid ailələrinin sosial müdafiəsi ilə bağlı idi. Çox ciddi fərman idi və onun icra edilməsi nəticəsində 12 mindən çox şəhid ailəsi dövlət tərəfindən 11 min manat məbləğində vəsait alacaq.
- Birinci rübdə büdcə daxilolmaları ciddi şəkildə - 200 milyon manatdan çox artıb. Bunun 150 milyon manatdan çox hissəsini vergi sahəsində, 50 milyon manatdan çox hissəni isə gömrük sahəsində əldə etmişik. Sevindirici hal ondan ibarətdir ki, vergi orqanları qeyri-neft sektorundan daha çox - 136 milyon manat vergilər toplaya bilmişlər. Bu, islahatların bariz nümunəsidir.
- İlin birinci rübündə ümumi daxili məhsul 3 faiz artmışdır. Bu, son bir neçə il ərzində ən yüksək göstəricidir və əminəm ki, ilin sonuna qədər bu rəqəm daha da artacaq.
- Sənaye istehsalı 4,4 faiz artmışdır. Bu da yaxşı göstəricidir. Amma bundan daha yaxşı göstərici odur ki, qeyri-neft sektorunda sənaye istehsalı 15,6 faiz artmışdır.
- Kənd təsərrüfatı 3,6 faiz, əhalinin gəlirləri isə 5,5 faiz artıb. İnflyasiya aşağı səviyyədədir - 2,1 faiz. Ölkə iqtisadiyyatına 2,8 milyard dollar sərmayə qoyulub. Bu sərmayənin 2 milyardı ölkəmizin qeyri-neft sektoruna yatırılıb.
- Dünya Bankı "Doing Business" hesabatında Azərbaycanı 25-ci yerə layiq görüb. Biz il ərzində 32 pillə irəliləmişik və ən islahatçı 10 ölkə sırasında yer almışıq. Əlbəttə, xarici investorlar, eyni zamanda, yerli sahibkarlar bunu görürlər, bilirlər və beləliklə, Azərbaycana sərmayə qoyuluşu prosesi əminəm ki, bundan sonra da təmin ediləcəkdir.
- Minimum əməkhaqqı və minimum pensiyalar təxminən 40 faiz, sosial müavinətlər orta hesabla 2 dəfə, məcburi köçkünlərə verilən müavinət 50 faiz artmışdır, tələbələrin təqaüdü, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə verilən müavinətlər artmışdır.
- Önəmli məsələ problemli kreditlərlə bağlı idi. Bu məsələ Azərbaycanda ən yüksək səviyyədə həll olundu. ...Ancaq deyə bilərəm ki, bu məsələ ən genişmiqyaslı və vətəndaşları təmin edəcək şəkildə, ədalətli şəkildə Azərbaycanda həll olunub. Nə üçün? Ona görə ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Biz Azərbaycan vətəndaşının rifahı üçün əlimizdən gələni edirik.
- Digər məsələ vaxtilə tikilmiş, ancaq istismara qəbul edilməmiş evlərlə bağlı idi. Ona görə bu məsələ ilə bağlı da fərman imzalandı və indi komissiya işləyir. Artıq evlərin, mənzillərin sənədləşməsi prosesi başlamışdır. Mən bu yaxınlarda göstəriş vermişdim ki, bu işlər daha da sürətlə getsin və o qüsurlar tezliklə aradan qaldırılsın, bu məsələ də öz həllini tapsın.
- Bu ilin yanvar ayında regionların sosial-iqtisadi inkişafına dair IV Dövlət Proqramı qəbul edilmişdir. Bu da çox önəmli hadisədir.
- 3200-dən çox məktəb tikilib və təmir edilib. Bizdə məktəb fondu təqribən 5000-ə yaxındır. Onların böyük hissəsi yenidən qurulub və bu proses davam etdirilir. 640-dan çox tibb müəssisəsi tikilib və yenidən qurulub.
- Bu gün qazlaşdırmanın səviyyəsinə görə Azərbaycan dünyada lider ölkələrdəndir, qazlaşdırmanın səviyyəsi 95 faizə çatıb.
- Elektrik enerjisi ilə bağlı qoyulan investisiyalar bizə nəinki özümüzü təmin etməyə, ixrac da etməyə imkan verdi.
- 15 min kilometr avtomobil yolu salınıb.
- İki böyük zavodun - karbamid və yüksək sıxlıqlı polietilen zavodlarının açılışı bizim sənaye potensialımızı böyük dərəcədə gücləndirir.
- Məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Bu il artıq 810 məcburi köçkün ailəsi yeni müasir qəsəbəyə köçürülür. Bu proses davam etdiriləcək.
- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə bizim mövqeyimizdə heç bir dəyişiklik yoxdur. Prinsipial mövqeyimiz ondan ibarətdir ki, bu məsələ ölkəmizin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq təşkilatların qəbul etdikləri qərar və qətnamələr əsasında, Helsinki Yekun Aktına, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun həll olunmalıdır. Başqa yanaşma yoxdur. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq. Onu da bildirməliyəm ki, danışıqlar formatı dəyişməz olaraq qalır. ...Həmçinin Minsk qrupunun həmsədrləri tərəfindən martın 9-da verilmiş açıqlama ünvanlıdır, birmənalıdır və bir daha onu göstərir ki, münaqişənin iki tərəfi var.
- Biz bundan sonra da öz prinsipial mövqeyimizdə qalacağıq, ölkəmizi, ordumuzu gücləndirəcəyik.

Aprelin 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı iclasda giriş nitqi söylədi.



### Prezident İlham Əliyevin giriş nitqi

- Bu ilin yanvar ayında 2018-ci ilin yekunlarını müzakirə edərkən mən əminlik ifadə etdim ki, 2019-cu il ölkəmiz üçün uğurlu il olacaq. Biz ötən il keçirilmiş prezident seçkilərindən sonra islahatların yeni mərhələsinə qədəm qoyduq. Prezident seçkiləri ərəfəsində islahatların anonsu verildi və islahatların məqsədyönlü şəkildə həyata keçirilməsi üçün çox ciddi addımlar atılmışdır, hazırlıq işləri aparılmışdır. Bu ilin birinci rübündə əldə edilmiş sosial və iqtisadi nəticələr göstərir ki, biz düzgün yoldayıq, islahatlara alternativ yoxdur. Son illər ərzində müxtəlif mərhələlərdə islahatlar aparılıb və bu islahatlar nəticəsində ölkəmiz inkişaf edib. Son 15 il ərzində iqtisadi baxımdan dünyada Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. Ölkəmizdə çox böyük infrastruktur layihələri icra edildi, insanların rifah halı yaxşılaşdı və respublikamızın gələcək inkişafı üçün möhkəm zəmin yaradılmışdır.

Bildiyiniz kimi, prezident seçkilərindən sonra imzaladığım ilk fərman şəhid ailələrinin sosial müdafiəsi ilə bağlı idi. Çox ciddi fərman idi və onun icra edilməsi nəticəsində 12 mindən çox şəhid ailəsi dövlət tərəfindən 11 min manat məbləğində vəsait alacaq. Artıq vəsaitin verilməsi prosesi başlamışdır. Əlbəttə ki, islahatların davam etdirilməsi üçün biz çox ciddi işləməliyik, daim inkişafda, axtarışda olmalıyıq. Dünya dəyişir, vəziyyət dəyişir, qarşımızda yeni çağırışlar dayanır. Ona görə biz daim irəliyə baxmalıyıq ki, ölkəmizi necə inkişaf etdirək və inkişafı dayanıqlı və uzunmüddətli edək.

İlin əvvəlindən Azərbaycan iqtisadiyyatında baş vermiş müsbət dəyişikliklər bizim potensialımızı gücləndirir, əhali tərəfindən yüksək qiymətləndirilir və bizə əlavə maliyyə resursu əldə etmək üçün şərait yaradır. Birinci rübdə büdcə daxilolmaları ciddi şəkildə - 200 milyon manatdan çox artıb. Bunun 150 milyon manatdan çox hissəsini vergi sahəsində, 50 milyon manatdan çox hissəni isə gömrük sahəsində əldə etmişik. Sevindirici hal ondan ibarətdir ki, vergi orqanları qeyri-neft sektorundan daha çox - 136 milyon manat vergilər toplaya bilmişlər. Bu, islahatların bariz nümunəsidir. Sahibkarlar da bilirlər ki, onlar dövlətin vergisini tam ödəməlidirlər. Şəffaflıq və yeni yanaşma nəticəsində biz birinci rübdə böyük məbləğdə əlavə vəsait əldə etdik. Əlbəttə, bu, imkan yaratdı ki, biz bu vəsaiti, ilk növbədə, sosial sahəyə yönəldə bildik.

Son illərdə həm sosial, həm infrastruktur sahələrində, insanların rifah halının yaxşılaşdırılması istiqamətində çox ciddi addımlar atılmışdır. Büdcə daxilolmalarının artımı əminəm ki, ilboyu müşahidə olunacaq. Çünki aparılan islahatlar və yeni yanaşma prinsipləri bunu deməyə əsas verir. Beləliklə, bizdə əlavə maliyyə resursu formalaşacaqdır.

İqtisadi və sosial sahədə aparılan siyasət rəqəmlərdə də özünü büruzə verir. Beləliklə, ilin birinci rübündə ümumi daxili məhsul 3 faiz artmışdır. Bu, son bir neçə il ərzində ən yüksək göstəricidir və əminəm ki, ilin sonuna qədər bu rəqəm daha da artacaq. Çünki görülən işlər bunu deməyə əsas verir. Sənaye istehsalı 4,4 faiz artmışdır. Bu da yaxşı göstəricidir. Amma bundan daha yaxşı göstərici odur ki, qeyri-neft sektorunda sənaye istehsalı 15,6 faiz artmışdır. Bax, gördüyümüz işlərin nəticəsi budur və sənaye istehsalının, xüsusilə qeyri-neft sektorunda sənaye istehsalının artırılması bizim siyasətimizin bariz nümunəsidir. Kənd təsərrüfatı 3,6 faiz, əhalinin gəlirləri isə 5,5 faiz artıb. İnflyasiya aşağı səviyyədədir - 2,1 faiz. Ölkə iqtisadiyyatına 2,8 milyard dollar sərmayə qoyulub. Bu sərmayənin 2 milyardı ölkəmizin qeyri-neft sektoruna yatırılıb. Biz burada da müsbət dinamikanı görürük. Çünki bizim əsas məqsədimiz, əsas vəzifəmiz qeyri-neft sektorunun inkişafıdır. Sərmayənin cəlb edilməsi, əlbəttə ki, hər bir ölkə üçün çox önəmli məsələdir, o cümlədən bizim üçün.

*Ardı 2-ci səh.*

## PREZİDENTİN mövqeyi: "İslahatlara alternativ yoxdur"

Dünən Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev qətiyyətlə islahatçı lider kimi yeniliklərə, novatorluğa sadiq qalacağını bildirdi və birmənalı şəkildə diqqətə çatdırdı ki, "islahatlara alternativ yoxdur".

Ən başlıcası isə müşavirədə Azərbaycanın gələcək inkişafını özündə ehtiva edən yeni sosial-iqtisadi inkişaf strategiyasının hazırlandığı elan olundu. Bu isə o deməkdir ki, islahatlar bundan sonra da Azərbaycan dövlətinin iqtisadi siyasətinin ana xəttini təşkil edəcəkdir.

Dövlət başçısı müşavirədəki çıxışında qazanılan uğurları məqbul saysa da, qarşıda duran yeni məsələlərin həllinə köklənməyin vacibliyini vurğuladı, yeni məqsədlərin səmti və məzmunu barədə danışdı. Xalqa və vətənə ləyaqətlə xidmət etməyi qarşısına ali məqsəd, ümdə vəzifə kimi qoyan dövlət başçısı öz vədlərinə əvvəlki illərdə olduğu kimi, yenə sadiq qalacağını qətiyyətlə vurğuladı. Artıq 16 ildir ki, Azərbaycan Prezidenti İlham Əliyevin müdrik, uzaqgörən və praqmatik daxili və xarici siyasəti ölkəmizdə təhlükəsizliyin qorunmasına, sabitliyə və iqtisadi yüksəlişin dinamik artımına xidmət edir.

Lakin hamımıza yaxşı məlumdur ki, dünya fərqli və acı reallıqlarla üzləşmişdir. Bir çox ölkələrin, hətta min illik tarixə malik qədim dövlətlər qanlı toqquşmaların, vətəndaş müharibələrinin girdabında boğulduğu halda, Azərbaycan bütün təhlükələrdən yan keçmiş, riskləri neytrallaşdırmış, dünya miqyasında sabitlik məkanı, sülhün carçısı kimi tanınmışdır.

*Ardı 5-ci səh.*



## Xeyirxahlıq missiyası

Bütün dövrlərdə cəmiyyətin mütərəqqi yolla inkişafı sağlam əqidəli, xalqa və dövlətə sədaqətli xidməti başlıca həyat amalına çevirən nəcib insanların fəaliyyəti ilə bağlı olub. Bu gün də belədir. Onlar ona görə cəmiyyətin sayılıb-seçilən şəxsiyyətlərinə çevrilirlər ki, öz üzərlərinə düşən sosial, siyasi, eləcə də mədəni məsuliyyəti doğru-düzgün dəyərləndirir, bunun nəticəsində isə xoş məram və məqsədləri ilə milyonların rəğbətini qazanırlar.

İnsanlara mənəvi saflıq, düzgünlük və ədalət nümunəsi göstərmək, yaxşılıq etmək və yardımçı olmaq kimi fundamental bəşəri dəyərlərin təbliğində istisnasız xidmətləri olan Azərbaycanın Birinci vitse-prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva haqqında söz düşəndə mütləq şəkildə onun xalqın sevimlisi, əzizi olduğu dilə gətirilir.

*Ardı 6-cı səh.*

## İLHAM ƏLİYEV Pekindən açıqladı: "Azərbaycan qitələri birləşdirən ən etibarlı tranzit mərkəzidir"

37 dövlət və hökumət başçısı, bir çox beynəlxalq təşkilatların rəhbərlərinin iştirakı ilə Pekində keçirilən "Bir kəmər, bir yol" II Beynəlxalq Əməkdaşlıq Forumu başa çatdı. 150 ölkə tərəfindən dəstəklənən layihənin reallaşması istiqamətində ciddi səy göstərən siyasi liderlər bu dəfə "Bir kəmər, bir yol əməkdaşlığı, ümumi parlaq gələcəyin qurulması" mövzusuna həsr olunan forumda bir araya gəldilər.

İkinci forum 6 il öncə, 2013-cü ildə Çinin dövlət başçısı Si Cinpin elan etdiyi yeni iqtisadi inkişaf strategiyasının qısa zaman kəsiyində Avrasiyada, yəni qədim İpək yolu üzərində yerləşən dövlətlər üçün qlobal əhəmiyyətli layihə olduğunu bir daha təsdiqləmiş oldu.

Prezident İlham Əliyevin də qatıldığı forum ölkələr arasında əməkdaşlıq baxımından yeni imkanlar açdı. Layihəni dəstəkləyənlər Birgə Kommünike də imzaladılar.

Çinin dövlət başçısı Si Cinpinin elan etdiyi bu strategiya dövlətlər arasında qarşılıqlı əlaqələrin və ticari-iqtisadi əməkdaşlığın inkişafını, malların güzəştli şərtlərlə Şərqdən Qərbə göndərilməsi üçün ticarət dəhlizlərinin yaradılmasını şərtləndirir. Azərbaycanın bu strategiyaya 2015-ci ildən rəsmən dəstək verdiyini bəyan edən Prezident İlham Əliyevin həmin il Çinə səfəri zamanı imzalanan Anlaşma Memorandumu ilə təsdiqlənib.

*Ardı 6-cı səh.*

# Son 15 il ərzində iqtisadi baxımdan dünyada

*Əvvəli 1-ci səh.*



Əgər əvvəlki illərdə daha çox neft-qaz sektoruna sərmayə qoyuluşu təmin edilirdisə, hazırda biz bunu qeyri-neft sektorunda görürük və bu da aparılan işlərin nəticəsidir. Çünki Azərbaycanda biznes mühiti yaxşılaşır, sərmayə qoyuluşu üçün daha yaxşı şərait yaradılır, həm yerli, həm xarici sərmayələr dövlət tərəfindən lazımi səviyyədə qorunur. Beləliklə, biz xarici və daxili sərmayəni cəlb etməklə ölkəmizi inkişaf etdiririk. Əlbəttə ki, Azərbaycana sərmayə qoyuluşunun perspektivləri üçün apardığımız islahatlar başlıca rol oynayır. Bildiyiniz kimi, Dünya Bankı "Doing Business" hesabatında Azərbaycanı 25-ci yerə layiq görüb. Biz il ərzində 32 pillə irəliləmişik və ən islahatçı 10 ölkə sırasında yer almışıq. Əlbəttə, xarici investorlar, eyni zamanda, yerli sahibkarlar bunu görürlər, bilirlər və beləliklə, Azərbaycana sərmayə qoyuluşu prosesi əminəm ki, bundan sonra da təmin ediləcəkdir.

Beləliklə, əsas iqtisadi və sosial göstəricilər müsbətdir, dinamika təmin edilir. Əlavə gəlirlərimiz imkan verir ki, biz sosial məsələlərin həllində daha fəal olaq və daha böyük işlər görək. Bildiyiniz kimi, ilin əvvəlindən çox böyük həcmli sosial paket təqdim edildi, təsdiqləndi, müvafiq fərmanlar imzalandı. Bu prosesə hazırlığı biz keçən ildən başlamışdıq və prezident seçkilərindən sonra andiçmə mərasimində əslində, görüləcək işlərlə bağlı mənim tərəfimdən göstərişlər verildi, yeni yanaşmanın konturları müəyyən edildi. Əlavə maliyyə vəsaiti imkan verir ki, biz sosial sahəni daha da gücləndirək. Minimum əməkhaqqı və minimum pensiyalar təxminən 40 faiz, sosial müavinətlər orta hesabla 2 dəfə, məcburi köçkünlərə verilən müavinət 50 faiz artmışdır, tələbələrin təqaüdü, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə verilən müavinətlər artmışdır. Nəyin hesabına, əlbəttə ki, islahatların hesabına. Ona görə ki, biz daha səmərəli işləyirik, şəffaflığı təmin edirik, biznes mühiti yaxşılaşır. Bu, bizə imkan verir ki, bu məsələləri həll edək.

Digər önəmli məsələ problemli kreditlərlə bağlı idi. Bu məsələ Azərbaycanda ən yüksək səviyyədə həll olundu. Bildiyiniz kimi, bir neçə il bundan əvvəl, neftin qiymətinin kəskin, təqribən 4 dəfə düşməsi nəticəsində neft ixrac edən ölkələr böyük çətinliklərlə üzləşmişlər. O ölkələrdə milli valyuta qiymətdən düşdü, o cümlədən Azərbaycanda. Bu, qaçılmaz hal idi. Ancaq biz qısa müddət ərzində vəziyyəti sabitləşdirə bildik. 2016-2017-ci illərdə iqtisadi və makroiqtisadi sabitliyin təmin edilməsi üçün addımlar atıldı. Baxmayaraq ki, o illərdə inflyasiya yüksək səviyyədə idi. Ancaq biz vəziyyəti sabitləşdirə bildik və beləliklə, inkişaf üçün zəmin yaratdıq. Təbii ki, bizim iqtisadi və maliyyə imkanlarımız artdıqca, ilk növbədə, vətəndaşları narahat edən bu məsələni həll etdik, özü də ən yüksək səviyyədə. Bir neçə ölkədə bu məsələ ilə bağlı müəyyən addımlar atılmışdır, müqayisə aparmaq istəmirəm. Ancaq deyə bilərəm ki, bu məsələ ən genişmiqyaslı və vətəndaşları təmin edəcək şəkildə, ədalətli şəkildə Azərbaycanda həll olunub. Nə üçün? Ona görə ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Biz Azərbaycan vətəndaşının rifahı üçün əlimizdən gələni edirik. Beləliklə, 100 minlərlə insanı narahat edən bu məsələ də uğurla həll olundu. Yəni, kompensasiyaların verilməsi prosesi başlamışdır və əminəm ki, qısa müddət ərzində başa çatacaqdır.

Digər məsələ vaxtilə tikilmiş, ancaq istismara qəbul edilməmiş evlərlə bağlı idi. Çoxmənzilli binalarda yaşayan vətəndaşlar əziyyət çəkirdilər, çünki o binalarla bağlı sənədləşmə işləri aparılmamışdır, müəyyən çatışmazlıqlar var idi. Ona görə bu məsələ ilə bağlı da fərman imzalandı və indi komissiya işləyir. Artıq evlərin, mənzillərin sənədləşməsi prosesi başlamışdır. Mən bu yaxınlarda göstəriş vermişdim ki, bu işlər daha da sürətlə getsin və o qüsurlar tezliklə aradan qaldırılsın, bu məsələ də öz həllini tapsın.

Beləliklə, görülən bu işlər nəticəsində üç milyon insan imzalanmış fərmanlardan bu və ya digər formada faydalanıb, vətəndaşların maddi vəziyyəti yaxşılaşıb, onları narahat edən problemlər öz həllini tapıb. Gələcəkdə biz bu istiqamətdə addımlarımızı atacağıq. Əminəm ki, qarşıda duran bütün vəzifələr uğurla icra ediləcək. Tam əminlik var. Ölkə uğurla inkişaf edir. Ölkəmizdə sabitlik təmin olunur. Sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Siyasətimizə göstərilən dəstək bizi gücləndirir. Əlbəttə ki, biz daha inamla irəliyə, nikbinliklə gələcəyə baxırıq. Çünki ölkə qarşısında duran bütün vəzifələr icra edilir.

Bu ilin yanvar ayında regionların sosial-iqtisadi inkişafına dair IV Dövlət Proqramı qəbul edilmişdir. Bu da çox önəmli hadisədir. III proqram uğurla və artıqlaması ilə icra edilmişdir. Üç proqramın icrası nəticəsində ölkəmizdə bir çox önəmli məsələlər öz həllini tapıb, o cümlədən sosial infrastruktur sahəsində. 3200-dən çox məktəb tikilib və təmir edilib. Bizdə məktəb fondu təqribən 5000-ə yaxındır. Onların böyük hissəsi yenidən qurulub və bu proses davam etdirilir. 640-dan çox tibb müəssisəsi tikilib və yenidən qurulub. Demək olar ki, indi bizim bütün şəhərlərimizdə, - bir neçə şəhəri istisna etmək şərtilə, orada da yaxın zamanlarda bu işlər görüləcək, - ən müasir avadanlıqlarla təchiz edilmiş xəstəxanalar var. Bakı şəhərində səhiyyə sahəsində çox böyük işlər görülüb, yeni xəstəxanalar, tibb müəssisələri yaradılıb.

İnfrastruktur layihələri ilə bağlı, görün, nə qədər böyük işlər görülüb. Bu gün qazlaşdırmanın səviyyəsinə görə Azərbaycan dünyada lider ölkələrdəndir, qazlaşdırmanın səviyyəsi 95 faizə çatıb. Biz ən ucqar dağ kəndlərinə qaz xətləri çəkdik. Halbuki bu, iqtisadi cəhətdən səmərəsizdir. Biz Azərbaycanda qazın mövcud olan aşağı tarifi ilə o xərcləri heç vaxt qarşılaya bilmərik. Onu da bildirməliyəm ki, Azərbaycanda təbii qazın tarifləri dünya miqyasında ən aşağı səviyyələrdən biridir, bəzi qonşu ölkələrdən iki-üç dəfə aşağıdır. Qazın olmaması insanları narahat edən məsələ idi. İndi bizim təqribən 3-4 faiz yaşayış məntəqələrimiz var ki, orada qaz yoxdur. Biz o işləri də görəcəyik.

Elektrik enerjisi ilə bağlı qoyulan investisiyalar bizə nəinki özümüzü təmin etməyə, ixrac da etməyə imkan verdi. Vaxt var idi ölkəmizi qaranlıq bürümüşdü. Vaxt var idi gecə saat 12-də televizor da söndürülürdü ki, elektrik enerjisinə sərfiyyat azalsın. Biz xaricdən elektrik enerjisini alırdıq və özümüzü gücbəla ilə təmin edirdik. İndi biz xaricə elektrik enerjisi ixrac edirik. Ölkə daxilində bütün bu işlər görülüb. Yolların çəkilişi - 15 min kilometr avtomobil yolu salınıb. İndi hər il bütün bölgələrdə, bütün rayonlarda, o cümlədən Bakı şəhərində, Bakı qəsəbələrində bu işlər gedir. Bu, həm insanlara rahatlıq verir, həm biznes, həm də fermerlər üçün çox əhəmiyyətlidir. Bunun hər cəhətdən böyük faydası var. Mən bu gün Regional İnkişaf Proqramının ancaq bir hissəsini qeyd edirəm. Bu, doğrudan da, böyük bir dönüş, böyük bir irəliləyiş oldu.

IV proqramın qəbul edilməsi önəmli hadisədir. IV proqram beş il ərzində icra ediləcək. Bu gün hələ də görə bilmədiyimiz işləri biz növbəti illər ərzində görəcəyik ki, ölkəmiz daha da inamla, uğurla inkişaf etsin.

Bu il iri sənaye müəssisələrinin açılışı olmuşdur. İki böyük zavodun - karbamid və yüksək sıxlıqlı polietilen zavodlarının açılışı bizim sənaye potensialımızı böyük dərəcədə gücləndirir. Bu zavodlarda yüzlərlə yeni iş yeri yaradılıb. Orada işləyən vətəndaşlar təlim keçiblər. Onlar bir neçə ölkədə təlim kurslarında olmuşlar. Orada işləyənlərin əksəriyyəti gənc mütəxəssislərdir. Bu, həm yeni texnologiyalardır, həm qeyri-neft sektorunun inkişafıdır, ixrac potensialımızın artırılmasıdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan sənaye istehsalı sahəsində böyük işlər görməyə qadirdir. Əlbəttə ki, sənaye istehsalı növbəti illərdə bizim üçün prioritet məsələlərdən biri olacaq. Əminəm ki, həm yerli, həm də xarici sahibkarlar bu işlərə diqqət göstərəcəklər.

İndi xaricdən investisiya, sərmayə qoymaq istəyənlərin sayı çoxalır. Xarici sahibkarlar müraciət edirlər. Mənim bu yaxınlarda Çin Xalq Respublikasına etdiyim səfər çərçivəsində görüşdüyüm iri şirkətlərin rəhbərlərinin fikri də çox müsbətdir. Onlar da Azərbaycana sərmayə qoymaq üçün indi işlər aparırlar və böyük maraq göstərirlər.

Biz bu ilin əvvəlindən ölkəmizdə bir neçə mötəbər beynəlxalq tədbir keçirmişik. Onların arasında VII Bakı Qlobal Forumunu qeyd etmək istəyirəm. Bu, dünya miqyasında bu gün ən mötəbər forumlardan biridir. Bu forumda 50 ölkəni təmsil edən 500-dən çox qonaq iştirak etmişdir. Onların arasında 50-yə yaxın fəaliyyətdə olan və sabiq dövlət və hökumət başçısı olmuşdur. Forum həm intellektual potensialına, həm də müzakirə olunan məsələlərə görə, doğrudan da, dünya miqyasında seçilən tədbirlərdən biridir.

Bakıda bizim təşəbbüsümüzlə OPEC+ görüşü keçirilmişdir. Bildiyiniz kimi, Azərbaycan nəinki bu təşəbbüsün iştirakçısıdır, hətta bu təşəbbüsün, - əgər belə demək mümkündürsə, - müəlliflərindən biridir. Çünki OPEC-in baş katibinin Bakıda olan zaman açıqlaması bunu göstərir. Mən bunu özüm heç vaxt demirdim. Ancaq o, bunu rəsmi qaydada bildirdi ki, hələ 2016-cı ildə Davos Ümumdünya İqtisadi Forumunda çıxış edərkən, paneldə suala cavab verərkən demişdim ki, neftin qiymətinin tənzimlənməsi üçün ən məqbul variant OPEC və iri qeyri-OPEC ölkələrinin birgə fəaliyyətidir. Onlar razılığa gəlməlidirlər ki, neftin qiyməti sabit qalsın. Hasilat aşağı düşməlidir və hər kəs buna əməl etməlidir. Ancaq o halda neftin qiyməti qalxa bilər. Əgər o vaxt neftin qiyməti təqribən 30 dollar ətrafında idisə, bu gün bu, 70 dollar ətrafındadır.

Yəni, burada da Azərbaycan öz töhfəsini verir. Bizim dəvətimizlə OPEC və qeyri-OPEC ölkələrinin görüşü Bakıda keçirilmişdir. Adətən bu görüş OPEC-in mənzil-qərargahında keçirilir, bəzi hallarda başqa ölkələrdə, o cümlədən Bakıda.

Bu il Cənub Qaz Dəhlizinin Məşvərət Şurası ənənəvi olaraq Azərbaycanda keçirildi. Bu görüşün də çox böyük mənası var. Çünki hər il keçirilən bu tədbir həm imkan verir ki, biz görülmüş işlərə nəzər salaq və ən önəmlisi, görüləcək işlər haqqında fikir mübadiləsi aparaq, birgə fəaliyyət planı tərtib edək. Beləliklə, il ərzində biz elə bil ki, özümüz üçün bir iş planı tərtib edirik.

Digər önəmli tədbirlər keçirilmişdir. Bir sözlə, Azərbaycan ilin əvvəlindən bütün sahələrdə uğurla inkişaf edir. Sosial məsələlər arasında, əlbəttə ki, məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Bu il artıq 810 məcburi köçkün ailəsi yeni müasir qəsəbəyə köçürülür. Bu proses davam etdiriləcək. Bu, bizim ən prioritet məsələlərimizdən biridir. Bu məsələyə biz daim diqqət göstəririk.

O ki qaldı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə, bizim mövqeyimizdə heç bir dəyişiklik yoxdur. Prinsipial mövqeyimiz ondan ibarətdir ki, bu məsələ ölkəmizin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq təşkilatların qəbul etdikləri qərar və qətnamələr əsasında, Helsinki Yekun Aktına, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun həll olunmalıdır. Başqa yanaşma yoxdur. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq. Onu da bildirməliyəm ki, danışıqlar formatı dəyişməz olaraq qalır. Baxmayaraq ki, bəzi cəhdlər olub, ancaq bizim fəaliyyətimiz nəticəsində bu cəhdlərin qarşısı alınıb. Həmçinin Minsk qrupunun həmsədrləri tərəfindən martın 9-da verilmiş açıqlama ünvanlıdır, birmənalıdır və bir daha onu göstərir ki, münaqişənin iki tərəfi var. Ona görə hesab edirəm ki, bu mövzu artıq öz həllini tapıb. Biz bundan sonra da öz prinsipial mövqeyimizdə qalacağıq, ölkəmizi, ordumuzu gücləndirəcəyik. Bu ilin əvvəlindən bu istiqamətdə də böyük işlər görülüb və görüləcək.

❖ ❖ ❖

Prezidentin iqtisadi siyasət və sənaye məsələləri üzrə köməkçisi **Natiq ƏMİROV** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident.

Hörmətli iclas iştirakçıları.

Əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş iqtisadi inkişaf strategiyası 2003-cü ildən etibarən, möhtərəm cənab Prezident, Sizin tərəfinizdən uğurla inkişaf etdirilərək çox böyük nailiyyətlərə imza atılmışdır. Tərəfinizdən hazırlanaraq uğurla həyata keçirilən iqtisadi islahatlar, regionların sosial-iqtisadi inkişaf proqramları və digər cəsarətli addımlar Azərbaycanda nəhəng infrastruktur layihələrinin reallaşmasına, iqtisadiyyatın bütün sahələrinə investisiya qoyuluşlarının əhəmiyyətli dərəcədə artırılmasına gətirib çıxarmış, gələcəkdə turizmin, kənd təsərrüfatının və qeyri-neft sektorunun digər sahələrinin inkişafını təmin edəcək möhkəm təməl bərqərar olunmuşdur.

Möhtərəm cənab Prezident, 2014-2015-ci illərdə dünya bazarlarında neftin qiymətinin 4 dəfəyə qədər aşağı düşməsi ilə yaranan dünya iqtisadi böhranı və bu böhrandan ölkəmizin qısa müddətdə çıxaraq iqtisadi artımı yenidən təmin etməsi məhz qurduğunuz o möhkəm təməl sayəsində mümkün olmuşdur. Bu da bir həqiqətdir ki, regionların sosial-iqtisadi inkişaf proqramlarının və çoxsaylı infrastruktur layihələrinin uğurlu icrası olmasaydı, biz bu gün turizmin inkişafından danışa bilməzdik. Vaxtında həyata keçirilmiş nəhəng meliorasiya layihələri olmasaydı, bu gün kənd təsərrüfatının uğurlu inkişafı mümkün olmazdı.

Möhtərəm cənab Prezident, çıxışlarınızın birində qeyd etdiyiniz kimi, 2014-2015-ci illərdə baş verən dünya iqtisadi böhranına görə Siz qeyri-neft sektorunun inkişafının dayanıqlılığını təmin etmək və iqtisadiyyatın neft sektorundan asılılığını minimuma endirmək üçün nəzərdə tutduğunuz tədbirlərin müddətlərini təxminən on il qabağa çəkməli oldunuz. Lakin həmin dövrə qədər Sizin rəhbərliyinizlə həyata keçirilmiş layihələr bu mürəkkəb vəziyyəti, vətəndaşların sosial rifahını pozmadan və nəzərdə tutulmuş bütün sosial proqramları icra etməklə çətinliyi imkana çevirmək kimi bir bacarığa da imza atmağınıza şərait yaratmışdır. Sizin tapşırığınıza əsasən başlanılan layihələr də daxil olmaqla, həyata keçirməyi nəzərdə tutduğunuz yeni proqramlar, qeyri-neft sektorunda sənayenin, kənd təsərrüfatının və digər sahələrin inkişafını təmin edəcək dövlət proqramları vahid bir sənəddə - milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol xəritələrində birləşdirilərək 2016-cı ilin dekabr ayında tərəfinizdən müvafiq fərmanla təsdiq edilmişdir. Bu Yol xəritələrinin əsas icrası 2017-2020-ci illər olmaqla, dörd ili əhatə edir və keçən iki il müddətində nəzərdə tutulan tədbirlərin ən azı 50 faizinin icrası nəzərdə tutulmuşdur. Müvafiq sərəncamınızla İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən həyata keçirilən monitorinqin nəticələrinə əsasən, Strateji Yol xəritələrinin ümumi icrası nəzərdə tutulan 50 faizə qarşı 52 faiz təşkil etmişdir ki, bu da icra qrafikini qabaqlamaqla icranın sürətləndirilməsi anlamına gəlir. Ayrı-ayrı sahələr üzrə icra faizlərinin müxtəlif olmasına baxmayaraq, bütövlükdə nəzərdə tutulan 50 faizlik icra həyata keçmiş və 52 faizlik icra ilə biz bu məqama gəlib çıxmışıq. Ayrı-ayrı qurumların performansına nəzər yetirdikdə isə bütövlükdə bütün qurumlar 50 faiz üçün nəzərdə tutulan həddə gəlib çatmış, lakin Biznes Mühiti və Beynəlxalq Reytinq üzrə Komissiya, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Vergilər Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi Strateji Yol xəritələrində onlar üçün müəyyən edilmiş tədbirlərin icrasını, demək olar ki, tam şəkildə həyata keçirmişdir.

Möhtərəm cənab Prezident, Strateji Yol xəritələrinin əsas tədbirlərinin təqribən 40 faizi İqtisadiyyat Nazirliyi və Kənd Təsərrüfatı Nazirliyinin payına düşür ki, bu məsələlərə sistemli yanaşılması, çoxsaylı komissiyaların, əlaqələndirici qrupların monitorinq qurumları ilə birgə fəaliyyəti həm hər iki nazirliyin, həm də digər qurumların birgə fəaliyyəti ilə Strateji Yol xəritələrində bu uğura imza atmağa imkan vermişdir. Mən burada xüsusilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti hörmətli Mehriban xanımın xidmətini qeyd etmək istərdim. Çünki qurumların əlaqələndirilməsi, müxtəlif fikirlərin bir araya gətirilməsi, vahid mövqedən çıxış edərək islahat proqramlarının həyata keçirilməsi istiqamətində Mehriban xanımın əhəmiyyətli dəstəyi xüsusi qeyd olunmalıdır. Strateji Yol xəritələrində tapşırığınıza əsasən müəyyən edilmiş tədbirlərin bizə nə verdiyinə baxsaq, ilk növbədə, makroiqtisadi sistemdə pul bazası hədəf götürülməklə makroiqtisadi sabitliyə nail olundu, manatın məzənnəsi sabitləşdirildi, inflyasiya optimal həddə endirildi, strateji valyuta ehtiyatları əhəmiyyətli dərəcədə artdı. Dövlət Neft Fondunun vəsaitlərindən istifadəyə dair büdcə qaydaları, beynəlxalq aləmdə "qızıl qayda" adlandırılan qaydalar təsdiq edildi. Borc strategiyası, ortamüddətli xərclər çərçivəsi qəbul edildi, fiskal dayanıqlılığın gücləndirilməsi təmin olundu, bank sektorunda əhəmiyyətli islahatlar həyata keçirildi.

Sizin tapşırığınıza əsasən biznes mühitinin daha da yaxşılaşdırılması və sahibkarlar üçün əlverişli biznes mühiti qurulması sahəsində çox ciddi addımlar atılmışdır. Prezident yanında Apelyasiya Şurası yaradıldı, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi təsis olundu, sahibkarların dünya iqtisadi məkanına inteqrasiyasını təmin etmək məqsədilə "Enterprise Azerbaijan" portalı, "Azexport.az", rəqəmsal ticarət qovşağı platformaları yaradıldı. İnvestorların maraqlarının qorunması, elektron məhkəmə, biznesə başlama, tikinti icazələri, elektrik şəbəkələrinə qoşulma, maliyyə mənbələrinə çıxış və əmlakın qeydiyyatı, müflisləşmə sahəsində əhəmiyyətli islahat tədbirləri həyata keçirilmişdir. Gömrükdə "yaşıl dəhliz" sistemi, hərtərəfli vergi islahatları, sənaye parkları, sənaye məhəllələri, aqroparklar və texnoparkların fəaliyyət dairəsi genişləndirilməklə sahibkarlara əhəmiyyətli vergi, gömrük və digər güzəştlərin verilməsi təmin edilmişdir. İlk dəfə olaraq dövlət satınalmalarının vahid internet portalı hazırlanmış və bu ildən istifadəyə verilmişdir.

Cənab Prezident, bu dövr ərzində Sizin təşəbbüsünüzlə başlanılan və liderliyinizlə həyata keçirilən meqalayihələr - "Cənub qaz dəhlizi", Bakı-Tbilisi-Qars, Astara (Azərbaycan)-Astara (İran), SOCAR Polymer, SOCAR Karbamid kimi nəhəng layihələr məhz bu dövrdə sona çatdırılmış və fəaliyyətə başlamaqla Azərbaycan iqtisadiyyatına öz töhfəsini verməyə davam etmişdir. İcbari tibbi sığorta sistemi pilot variantda tətbiq edilmiş, uğurlu nəticələr əsas götürülərək Sizin tərəfinizdən imzalanan müvafiq qanunlarla 2020-ci ildən bütün ölkədə tətbiqi nəzərdə tutulmuşdur. İşsizlikdən Sığorta Fondu yaradılmış, məşğulluq strategiyası qəbul edilmiş, ünvanlı sosial yardımın əhatə dairəsi genişləndirilmiş və özünüməşğulluq proqramlarının icrasına başlanılmışdır.

Bu ildən başlayaraq, Sizin də qeyd etdiyiniz kimi, şəhid ailələrinə birdəfəlik ödəmə verilmiş, minimum əməkhaqqı, minimum pensiya, tələbələrin təqaüdləri əhəmiyyətli dərəcədə artırılmış, qaçqınlar və məcburi köçkünlər də daxil olmaqla, bütün növ müavinətlər 100 faiz həcmində artırılmışdır. Təbii ki, bu göstəricilər iqtisadi göstəricilərdə də öz əksini tapmaya bilməzdi. İllik inflyasiya göstəricisi 2016-cı ildəki 12,4 faizdən 2018-ci ildə 2,3 faizə qədər enmiş, strateji valyuta ehtiyatları 2016-cı ildəki 37,9 milyard dollardan 2019-cu ildə 46,7 milyard dollara qalxmışdır. Büdcə xərcləri 2016-cı ildəki 17 milyard 800 milyon manatdan 2019-cu ildə 25 milyard 200 milyon manata qədər artmışdır. İlk dəfə olaraq qeyri-neft sektoru üzrə mal və xidmətlərin ixracında əhəmiyyətli irəliləyişlərə nail olunmuşdur. Bu sahədə, cənab Prezident, Sizin apardığınız islahatlar, bilavasitə rəhbərliyinizlə həyata keçirilən iqtisadi canlanma təkcə qeyri-neft məhsullarının ixracında bir milyard dollarlıq artımla nəticələnmişdir. Nominal ümumi daxili məhsulun göstəricisi isə 2015-ci ildəki 54 milyard manatdan 2018-ci ildə, demək olar ki, 80 milyard manatadək artmışdır. Təbii ki, cənab Prezident, bütün bu nailiyyətlər, Sizin həyata keçirdiyiniz, nəzərdə tutduğunuz və Azərbaycan xalqının rifahına yönəldilən bu islahatlar beynəlxalq maliyyə qurumları tərəfindən də çox diqqətlə izlənilir, təhlil olunur. Dünya Bankının "Doing Business" hesabatında da Azərbaycan Respublikası 2016-cı ildəki 63-cü yerdən 2019-cu ildə 25-ci yerə yüksəlməyə nail olmuşdur.

Qeyd etdiyim kimi, 2020-ci ilin sonuna qədər Strateji Yol xəritələrinin icrası üçün cəmi 20 ay qalıb və bu 20 ay ərzində, möhtərəm cənab Prezident, Sizin dövlət və hökumət qurumları qarşısında çox mühüm tələbləriniz, tapşırıqlarınız durur. Bu müddət ərzində biznes mühiti və rəqabət məcəlləsinin qəbulu ən əhəmiyyətli məsələlərdəndir. Sizin tapşırığınıza əsasən bu iki il ərzində rəqabət məcəlləsinin qəbulu prosesi başa çatmalıdır. Ortamüddətli xərclər çərçivəsinə keçid təmin edilməli, korporativ idarəetmə standartları təsdiq olunmalı, özəl investisiyaların cəlbi artırılmalıdır. Maliyyə dərinliyinin 60 faizə qədər çatdırılması, aqrar sığortanın inkişafı, elektron kənd təsərrüfatı informasiya sisteminin ölkə üzrə tam tətbiqi nəzərdə tutulur. Neft maşınqayırması sahəsində ənənəvi istehsal sahələri bərpa olunmalı, birbaşa xarici investisiyaların cəlbi üçün tədbirlər görülməlidir. Kiçik və orta sahibkarların ümumi daxili məhsulda payının 15 faizə, qeyri-neft ixracında isə 10 faizə çatması üçün əhəmiyyətli islahat tədbirləri həyata keçirilməlidir. Lisenziya və icazələr portalının tam fəaliyyəti təmin olunmalı, açıq səma sazişləri, yeni xarici aşağı büdcəli hava nəqliyyatı şirkətlərinin cəlbi istiqamətində tədbirlər görülməlidir. Təhsil sahəsində, xüsusilə peşə təhsili sahəsində islahatlar davam etdirilməlidir.

# Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmayıb



Sizin tapşırığınıza əsasən, elektrik enerjisi sisteminin modernləşdirilməsi, kommunal xidmətlər sektorunda səmərəliliyin yüksəldilməsi istiqamətində müvafiq qurumlar tərəfindən tədbirlər hazırlanaraq həyata keçirilir. Dövlət satınalmalarının vahid internet portalının bütün dövlət satınalmaları üzrə yeganə satınalma platformasına çevrilməsi ölkədə rəqabət mühitinin formalaşması istiqamətində atılacaq ən mühüm addımlardan biridir. Uzunmüddətli hədəfləri nəzərə aldıqda 2020-ci ildən sonrakı dövr üçün təbii ki, Azərbaycan Respublikasının strateji inkişaf proqramları hazırlanmalı və təsdiq edilməlidir. Məqsədəmüvafiq hesab etdiyiniz təqdirdə qlobal, regional və yerli trendlər, çağırışlar, risklər və təhdidlər nəzərə alınmaqla, uzunmüddətli baxışlar yenidən dəqiqləşdirilib, yeni strateji proqram çərçivəsində hazırlanaraq Sizin ali diqqətinizə təqdim edilə bilər.

Möhtərəm cənab Prezident, yuxarıda sadalanan bütün hədəflərə nail olmaq üçün təkcə hökumətin və dövlət qurumlarının deyil, bütün cəmiyyətin iştirakı vacibdir. Sizin dediyiniz kimi, bu günlərdə Çin Xalq Respublikasına etdiyiniz çox uğurlu səfər bir daha təsdiqlədi ki, dünya liderləri, böyük dövlətlər tərəfindən Azərbaycanın liderinə, eyni zamanda, onun həyata keçirdiyi siyasətə çox böyük diqqət göstərilir. Sizin həyata keçirdiyiniz islahatlar, Sizin həyata keçirdiyiniz siyasət Azərbaycanı bütün bölgədə təhlükəsizlik adası halına gətirməklə gələcək inkişafın qarantı qismində çıxış edir. Ölkədə və xaricdə yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı, cənab Prezident, Sizin tərəfinizdən başladılan və uzun illər həyata keçirilən bu islahat proqramlarına dəstək olmalı, cənab Prezidentin və onun siyasəti ətrafında sıx birləşməli, xalqımızın gələcək inkişafı yolunda öz töhfəsini verməlidir.

Diqqətinizə görə minnətdaram.

❖ ❖ ❖

Kənd təsərrüfatı naziri **İnam KƏRİMOV** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident.

Ölkədə ərzaq təhlükəsizliyinin təmin olunması, bu məqsədlə torpaq və su resurslarından daha səmərəli istifadə edilməsi, yüksək məhsuldarlığın əldə olunması Zati-alilərinin tərəfindən qarşımıza qoyulmuş əsas vəzifələrdir. Son illərdə Sizin rəhbərliyinizlə keçirilən davamlı və sistemli islahatlar nəticəsində aqrar məhsulların daxili bazar təminatı və ixrac həcmi artıb, kənd yerlərində məşğulluq və gəlir əldə etmək imkanları xeyli genişlənib.

2018-ci ildə kənd təsərrüfatı məhsullarının ümumi istehsal həcmi əvvəlki illə müqayisədə 4,6 faiz, o cümlədən bitkiçilik məhsullarının istehsalı 6,8 faiz artıb. Heyvandarlıq məhsullarının istehsalında artım 2,7 faiz təşkil edib. Keçən il 1,5 milyon tondan çox tərəvəz, 1 milyon tondan çox meyvə və giləmeyvə istehsal olunub. Bu isə müstəqillik dövründə qazanılmış ən yüksək nəticədir. Həmçinin meyvə-tərəvəz məhsullarının ixracı 11,1 faiz artaraq 530 milyon ABŞ dolları olub.

Aqrar sahədə müsbət inkişaf dinamikası cari ildə də davam edir. Birinci rübdə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ümumi istehsal həcmi 3,6 faiz, o cümlədən bitkiçilik 24,7 və heyvandarlıq 2,8 faiz artıb. 32 faiz çox tərəvəz istehsal olunub, meyvə-tərəvəz ixracının həcmi 28,2 faiz artıb.

Aqrar sahədə inkişafın davamlılığını təmin etmək üçün, müəyyən etdiyiniz strateji kursa uyğun olaraq, Kənd Təsərrüfatı Nazirliyi öz fəaliyyətini düzgün idarəçilik, innovasiyaların tətbiqi və fermerlərə yaxınlıq prinsiplərinə əsasən qurmuşdur. Fermerlərə xidmətlərin əlçatanlığını və keyfiyyətini artırmaq məqsədilə nazirliyin rayon idarələrinin əsasında Dövlət Aqrar İnkişaf mərkəzləri yaradılıb. Bununla da keçmiş kənd təsərrüfatı idarələri inzibati strukturdan xidmət qurumlarına çevriliblər. Mərkəzlərdə “vahid pəncərə” prinsipinə uyğun olaraq, fermerlərə 70-ə yaxın xidmət göstərilir.

Nazirliyin nəzdində fəaliyyət göstərən 4 qurumun bazasında Aqrar Xidmətlər Agentliyi yaradılıb. Agentlik baytarlıq, fitosanitar, toxum müfəttişliyi və texniki nəzarət xidmətləri üzrə çevik və səmərəli idarəetməni təmin edəcək.

Lizinq fəaliyyəti ilə bağlı həyata keçirilən islahat nəticəsində bazarda azad və ədalətli rəqabət mühiti formalaşıb. Belə ki, texnika və damazlıq heyvan alışına tətbiq edilən güzəştlər bütün təchizatçı şirkətlərə şamil olunub və “Aqrolizinq” ASC artıq bu bazarın iştirakçısı deyil. Bu isə həm texnikanın, həm də damazlıq heyvanların satış qiymətinin əsaslı ucuzlaşmasına səbəb olub.

Fermerlərə subsidiyaların və güzəştli kreditlərin verilməsində şəffaflığı və çevikliyi təmin etmək məqsədilə ötən il Aqrar İnkişaf və Kredit Agentliyi yaradılıb.

Fermerlərin qayğı və problemlərini daha yaxından dinləmək üçün bütün rayonlarda və nazirliyin aparatında Fermerlər Şuraları yaradılıb, Aqrar Könüllülər Hərəkatı formalaşdırılıb. Nazirliyin dəstəyi ilə son 6 ay ərzində 11 fermer assosiasiyası yaradılıb.

Möhtərəm cənab Prezident, fermerlərə dövlət dəstəyinin təkmilləşdirilməsi üçün tapşırığınıza əsasən subsidiyaların verilməsinin yeni qaydalarının layihəsi hazırlanıb. Bu gün fermerlərimizi qayğılandıran digər məsələlərdən biri və yüksək diqqətinizə ünvanladıqları çoxsaylı xahişləri, həmçinin kiçikhəcmli kreditlərə çıxışın asanlaşdırılması və təbii hadisələrə qarşı aqrar sığortanın tətbiq edilməsidir. Aqrar sahənin üzləşdiyi digər çağırışlar kiçik parsellərə bölünmüş torpaqların sistemləşdirilməsi, şorlaşmış, şorakətləşmiş və əkinə yararsız torpaqların yararlı hala salınması, müasir suvarmanın və təsərrüfatlararası yolların düzgün qurulmasıdır.

Ötən il nazirliyin prioritet vəzifələrindən birini Elektron Kənd Təsərrüfatı Sisteminin yaradılması təşkil edib. Sistemin istifadəyə verilməsi dövlət xidmətlərini fermerlər üçün daha əlçatan edəcək, subsidiyaların verilməsində şəffaflığı və çevikliyi təmin edəcək. Növbəti ildən subsidiyalar məhz bu sistem vasitəsilə veriləcək. Elektron sistem fermerlərə öz əkinlərini bazarın tələbinə uyğun düzgün planlaşdırmağa kömək edəcək, həmçinin bazarda məhsullar üzrə tələb-təklifin düzgün proqnozlaşdırılmasını asanlaşdıracaq. Bugünə qədər 100 mindən çox fermer sistemdə qeydiyyatdan keçib.

Kənd təsərrüfatında innovasiyaların tətbiqi, mütərəqqi həllər və texnologiyalardan daha geniş istifadənin təmin olunması da əsas vəzifələrimizdəndir. Bu məqsədlə Aqrar Elm və İnnovasiya Mərkəzi formalaşdırılıb. Həmçinin nazirliyin elmi-tədqiqat institutları araşdırmalarını innovativ yeniliklərin fermerlərə ötürülməsi istiqamətində qurublar.

Fermerlərin bacarıqlarının artırılması və maarifləndirilməsi üçün xüsusi təlim strategiyası hazırlanıb. Bilavasitə yerlərdə fermerlərə peşəkar təlimlərin və məlumatlandırma tədbirlərinin keçirilməsinə başlanılıb.

Əlverişli aqrobiznes mühitinin, fermerlərin yerli və xarici bazarlara çıxış imkanlarının artırılması üçün Sizin müvafiq fərmanınızla Aqrar Tədarük və Təchizat Şirkəti təsis edilib. Şirkət tərəfindən “Kənddən şəhərə” satış platforması yaradılıb, davamlı olaraq müasir yarmarkalar təşkil olunur.

Möhtərəm cənab Prezident, 2019-cu ildə qarşımızda qoyduğunuz vəzifələri icra etmək və strateji hədəflərə nail olmaq üçün müvafiq tədbirlər görülüb. Cari təsərrüfat ilində 1 milyon 85 min hektar sahədə taxıl əkilib, orta məhsuldarlığın daha yüksək olması gözlənilir. 100 min hektarda pambıq əkilməsi üçün səpin işləri yekunlaşmaq üzrədir və bu il ümumi məhsuldarlığın daha yüksək olması proqnozlaşdırılır. Ötən il xam pambığın alış qiymətinin hər ton üçün 650 manat müəyyən edilməsi pambıq istehsalını fermerlər üçün sərfəli sahəyə çevirib. 800 ton yaş barama istehsalı üçün hazırlıq işləri başa çatdırılıb.

Cari ildə taxıl və pambıq istehsalındakı artımın yalnız məhsuldarlığın yüksəldilməsi hesabına əldə olunması qarşımızda duran vacib hədəflərdəndir. Həmçinin yeni meyvə bağlarının salınması, o cümlədən fındıq sahələrinin 84 min hektara çatdırılması, badam və qoz bağlarının sahələrinin genişləndirilməsi həllivacib məsələlər kimi qarşımızda durur. Zeytunçuluq, çayçılıq, çəltikçilik, sitrusçuluq, üzümçülük sahələrinin inkişafının dəstəklənməsi də əsas prioritetlərimizdəndir.

Bu vəzifələrin yüksək səviyyədə icra olunması üçün təminat məsələlərinin həllinə xüsusi diqqət yetirilib. Cari ildə mineral gübrə və pestisidlərlə təminatla bağlı hazırlıq işləri tam yekunlaşıb. Tapşırığınıza əsasən fermerlərin texnika ilə təchiz olunması diqqətdə saxlanılıb. Ötən il “Aqrolizinq” tərəfindən 6046 ədəd müasir texnika, o cümlədən 108 ədəd pambıqyığan və 250 ədəd taxılyığan kombayn alınıb. Artıq bu ildən fermerlər texnikanı “Aqrolizinq” ASC-dən deyil, 40 faiz güzəşt və 5 il faizsiz kredit tətbiq edilməklə istədikləri şirkətdən ala biləcəklər.

Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması və xaricdən yüksək genetik potensiala malik heyvanların gətirilməsi tədbirləri də davam etdirilib. Keçən ildən yerli təsərrüfatlardan cins heyvanların alınması mexanizminin tətbiqinə başlanılıb. 2018-ci ildə süni mayalanma yolu ilə alınmış buzovların sayı əvvəlki illə müqayisədə 48 faiz artıb. Texnikalarda olduğu kimi, fermerlər damazlıq heyvanları da bu ildən “Aqrolizinq” ASC-dən deyil, 60 faiz güzəşt və 3 il faizsiz kredit tətbiq edilməklə istədikləri şirkətdən ala biləcəklər.

Möhtərəm cənab Prezident.

Ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin olunmasına, aqrar sahənin şaxələndirilmiş və dayanıqlı inkişafına, fermerlərin maddi-rifah halının yaxşılaşdırılmasına göstərdiyiniz davamlı diqqət və qayğıya görə kənd zəhmətkeşləri adından Sizə dərin təşəkkürümüzü bildiririk. Sizi bir daha əmin edirik ki, qarşımıza qoyduğunuz vəzifələri layiqincə yerinə yetirmək üçün bütün səy və imkanları səfərbər edəcəyik.

Diqqətinizə görə təşəkkür edirəm!

❖ ❖ ❖

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri **Zaur ƏLİYEV** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident, zati-aliləri.

Sizin diqqət və qayğınız nəticəsində Azərbaycanın səhiyyə sistemində uğurlu islahatlar aparılmış, tibb müəssisələrinin maddi texniki bazası və kadr potensialı daima gücləndirilmiş, bütövlükdə səhiyyə sahəsində böyük nailiyyətlər əldə edilmişdir. Görülmüş işlərin davamı kimi icbari tibbi sığortanın tətbiqi Sizin növbəti uğurlu siyasətiniz olaraq, səhiyyə sisteminin daha da sürətlə inkişaf etməsinə öz töhfəsini verəcək.

Bildiyiniz kimi, genişmiqyaslı sosial layihə olan icbari tibbi sığortanın başlıca məqsədləri səhiyyə sisteminin maliyyələşdirilməsini dayanıqlı iqtisadi əsaslarla qurmaq, tibbi xidmətlərin əlçatanlığını təmin etməklə əhalini sağlamlıqla bağlı maliyyə risklərindən qorumaqdır. Ölkədə icbari tibbi sığortanın tətbiqi səhiyyə sahəsinə ayrılan maliyyə vəsaitlərinin daha da səmərəli istifadə edilməsinə və əhalinin tibbi xidmətlərdən istifadə imkanlarının artırılmasına zəmin yaradacaq.

Cənab Prezident, Sizin göstərişinizə uyğun olaraq 2017-ci ilin yanvarından etibarən ölkəmizdə icbari tibbi sığortanın pilot layihə şəklində həyata keçirilməsinə başlanmışdır. Pilot layihə ilk olaraq Mingəçevir şəhəri və Yevlax rayonunun ərazilərini əhatə etmiş, 2018-ci ildən etibarən isə Ağdaş rayonunun ərazisində də tətbiq edilmişdir. Tapşırıqlarınızın icrası məqsədilə pilot layihə çərçivəsində bir sıra mühüm addımlar atılmışdır. Belə ki, əhalisi 340 min nəfər təşkil edən pilot ərazilərdə sığorta olunanlar və 30 minə yaxın məcburi köçkün baza zərfi çərçivəsində ödənişsiz tibbi xidmətlərlə təmin edilmiş və əhalinin səhiyyə xərcləri ilə bağlı maliyyə yükü əhəmiyyətli dərəcədə azaldılmışdır. Tibb müəssisələrinin fəaliyyətində məhsuldarlıq artırılaraq tibbi-iqtisadi rentabellik təmin olunmuşdur. Mövcud maddi-texniki baza və kadr resursları ilə daha çox pasiyentə xidmət göstərilmiş və nəticədə 2018-ci ildə pilot ərazilərdə ambulator-poliklinik gəlişlərin sayı 1,1 milyon olmuş, adambaşına düşən həkimə gəlişlərin sayı 3,2 dəfə təşkil etmişdir. Evə yazılan xəstələrin sayı isə 21 min 454 nəfər olmaqla 2016-cı illə müqayisədə 11 faiz artmışdır. Bununla yanaşı, icbari tibbi sığortanın tətbiqi nəticəsində pilot ərazilərdə anadangəlmə ürək qüsuru ilə doğulan 37 uşaq əməliyyat edilib, onlar əlillikdən xilas edilərək öz sağlamlıqlarına qovuşublar.

Pilot ərazilərdə kəmiyyət göstəricilərinin artması ilə yanaşı, rayon xəstəxanalarında əvvəllər aparılması mümkün olmayan endoprotezləşmə, TUR, laparoskopik cərrahi müdaxilələr və sair mürəkkəb əməliyyatlar həyata keçirilmişdir. Bu əməliyyatların bilavasitə rayon xəstəxanalarında aparılması əhalinin müasir və keyfiyyətli tibbi xidmətlərə əlçatanlığının təmin olunması istiqamətində atdığımız addımlardan biridir. Kadr potensialının gücləndirilməsi məqsədilə pilot ərazilərin tibb işçiləri xarici ölkələrdə təlim və təcrübə proqramlarına göndərilmişdir. Eyni zamanda, ölkədə ilkin səhiyyə xidmətinin təkmilləşdirilməsi istiqamətində tədbirlər görülərək Ailə Sağlamlıq Mərkəzləri yaradılmışdır.

Pilot layihənin ən mühüm nəticələrindən biri də pilot ərazilərdə fəaliyyət göstərən həkimlərin əməkhaqlarının artırılması və nəticə etibarilə onların maddi rifahının əhəmiyyətli dərəcədə yüksəldilməsi olmuşdur. Belə ki, həkimlərin orta aylıq maaşı 2018-ci ildə ölkə üzrə orta aylıq əməkhaqqının 1,9 mislini təşkil etmişdir.

Bunlarla yanaşı, 2018-ci ildə icbari tibbi sığortanın vəsaitlərinə qənaət edilməsi məqsədilə pilot ərazilərdəki xəstəxanaların fəaliyyətində səmərəliliyin təmin edilməsi, idarəetmənin müasirləşdirilməsi və maddi-texniki bazanın yaxşılaşdırılması istiqamətində də müvafiq işlər görülmüşdür. Tibb müəssisələrinin fəaliyyətinin elektronlaşdırılması tam təmin edilmişdir.

Əhalinin münasibətini öyrənmək məqsədilə aparılan sorğularda respondentlərin mütləq əksəriyyəti icbari tibbi sığortanın tətbiq olunmasına dair müsbət fikir bildirmişdir. Mingəçevir şəhəri üzrə bu göstərici 88 faiz, Yevlax rayonu üzrə 79 faiz, Ağdaş rayonu üzrə isə 86 faiz təşkil etmişdir.

Agentlik tərəfindən aparılan təhlillərə və beynəlxalq ekspertlərin rəylərinə əsasən pilot layihənin ikiillik nəticələrinə görə əminliklə demək olar ki, ölkəmiz icbari tibbi sığortanın tətbiqi və sonrakı inkişafı üçün lazımi şəraitə, zəruri potensial, resurs və imkanlara malikdir.

Cənab Prezident, Sizin siyasi iradəniz sayəsində icbari tibbi sığorta sahəsində görülmüş işlərin davamı olaraq “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanuna dəyişikliklər layihəsi hazırlanmış və 2018-ci il dekabrın 28-də Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmişdir. 2020-ci il yanvarın 1-dən qüvvəyə minəcək qanunda bütün əhaliyə təcili və təxirəsalınmaz tibbi yardım, habelə ilkin səhiyyə xidməti üçün sığorta haqlarının dövlət büdcəsi tərəfindən ödənilməsi göstərilmişdir. Həmçinin ölkə əhalisinin 45 faizini təşkil edən iqtisadi qeyri-fəal əhali, başqa sözlə desək, uşaqlar, tələbələr, pensiyaçılar, sosial müavinət və ünvanlı sosial yardım alan şəxslər, hamilə və sosial məzuniyyətdə olan qadınlar üçün sığorta haqqının dövlət büdcəsi tərəfindən ödənilməsi nəzərdə tutulmuşdur. Bu isə Sizin sosialyönümlü islahatlarınızın və həssas əhali kateqoriyasına göstərdiyiniz yüksək qayğının bariz nümunəsidir. Eyni zamanda, vurğulamaq istərdim ki, 2018-ci il dekabrın 20-də 418 nömrəli fərmanınızla “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxsin yaradılması və dövlət tibb müəssisələrinin TƏBİB-in tabeliyinə verilməsi, dövlət tibb müəssisələrinin elektronlaşdırılması, habelə icbari tibbi sığortanın sonrakı inkişafı ilə bağlı qərarlar qəbul edilmiş və bundan irəli gələrək agentlik qarşısında mühüm vəzifələr qoyulmuşdur.

“Tibbi sığorta haqqında” qanuna edilmiş dəyişikliklərin 2020-ci ildə qüvvəyə minməsini nəzərə alaraq, ölkənin səhiyyə sisteminin icbari tibbi sığorta tələblərinə uyğunlaşdırılması ehtiyacı yaranmışdır. Bu məqsədlə tərəfimizdən tibb müəssisələrinin ilkin qiymətləndirilməsi həyata keçirilmiş və nəticədə 2019-cu il üzrə görüləcək işlərə dair tədbirlər planı işlənib hazırlanmışdır. Tədbirlər planına uyğun olaraq tibb müəssisələrinin elektronlaşdırılması ilə bağlı zəruri işlərin görülməsi və informasiya texnologiyalarının geniş tətbiqi nəzərdə tutulur. Bununla yanaşı, tibb müəssisələrinin icbari tibbi sığorta sisteminə keçidini təmin etmək məqsədilə tibb işçilərinin biliklərinin artırılması və bacarıqlarının təkmilləşdirilməsi üçün bir sıra təlimlərin keçirilməsi planlaşdırılır.

Eyni zamanda, dövlət tibb müəssisələrində göstərilən tibbi xidmətlərin keyfiyyətini beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə Agentlik Səhiyyə Nazirliyi ilə birgə tibb müəssisələri üçün keyfiyyət standartları üzərində işə başlayıb. 2020-ci il ərzində 20 standartın tətbiqi nəzərdə tutulub. Standartlara uyğun fəaliyyət göstərən tibb müəssisələri agentlik tərəfindən keyfiyyət indeksinə uyğun əlavə maliyyələşmə imkanı əldə edəcək. Sonrakı illərdə isə keyfiyyət standartlarının sayının 200-ə çatdırılması nəzərdə tutulub.

Əhalinin icbari tibbi sığorta çərçivəsində yararlana biləcəyi xidmətlərin toplusunu ehtiva edən xidmətlər zərfinin hazırlanması, habelə tibbi xidmətlərin tariflərinin müəyyənləşdirilməsi üzərində işlər aparılır. Həmçinin qarşıya qoyulan mühüm vəzifələrdən biri də səhiyyə işçilərinin gəlirlərinin əmək bazarının tələblərinə uyğun tənzimlənməsidir. Hazırda bu istiqamətdə işlər yekunlaşmaq üzrədir və layihələr ən qısa zamanda aidiyyəti üzrə təqdim olunacaq.

Sonda zati-alilərinizi bir daha əmin etmək istərdim ki, icbari tibbi sığortanın ölkədə uğurlu tətbiqi üçün İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi öz potensialını səfərbər edərək, Sizin etimadınızı doğrultmağa çalışacaq. İndi sayı 10 milyon olan əhalimizin icbari tibbi sığortalanması kimi şərəfli missiyanı bizə həvalə etdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirirəm.

Dövlət başçısı iclasda yekun nitqi söylədi.

Bax: səh. 4

# Son 15 il ərzində iqtisadi baxımdan dünyada Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmayıb

## Azərbaycan Prezidenti İlham Əliyevin yekun nitqi

- Bizim islahatlarımız davam edir. Bu gün məruzələrdə səslənən fikirlər deməyə əsas verir ki, islahatlar yaxşı nəticələr verir. Strateji Yol xəritələrinin icrası ilə bağlı məlumat verildi və iki il ərzində yol xəritələrinin icrası 52 faiz təşkil edir. Bu, deməyə əsas verir ki, bu önəmli proqram 2020-ci ilin sonuna qədər icra ediləcək və beləliklə, biz bütün sahələrdə irəliləyişə nail olacağıq. Çünki artıq məruzə edilən məsələlər göstərir ki, hər bir sahə üzrə çox ciddi addımlar atılır. Büdcə gəlirlərimiz artır, makroiqtisadi vəziyyət sabitdir, islahatlar öz nəticəsini verir, biznes mühiti yaxşılaşır. Yəni, biz bütün sahələrdə islahatların uğurlu nəticələrini görürük. Kənd təsərrüfatı sahəsində aparılan islahatlar öz nəticəsini verir, icbari tibbi sığorta ilə bağlı görülən işlər gözəl nəticə verir. İki ildir ki, bu proqram icra edilir və pilot layihələr insanları razı salır, vətəndaşlar razıdır, həkimlərin əməkhaqqı qalxır. Yəni, bu, ciddi addımlardır və göstərir ki, biz hər bir sahədə yeni addımlar atmalıyıq, dünyanın ən mütərəqqi təcrübəsini Azərbaycana gətirməliyik, tətbiq etməliyik və nəticə etibarilə daha da uğurlu inkişaf modeli ortaya qoymalıyıq.

Ümumiyyətlə, deyə bilərəm ki, biz hazırda iqtisadiyyatımızın yeni inkişaf strategiyası üzərində işləyirik, bu proses başlanmışdır. Bu prosesə qabaqcıl beynəlxalq mütəxəssislər, alimlər cəlb ediləcək ki, yeni inkişaf strategiyamız uğurlu olsun və gözəl nəticələrə gətirib çıxarsın. Bu, günə qədər görülmüş işlər bunun üçün gözəl zəmin yaratdı. Biz əsas infrastruktur layihələrini icra etdik. Qeyd etdiyim kimi, növbəti beşillik proqram - Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində bu gün hələ də görə bilmədiyimiz bütün layihələri icra edəcəyik. Bu, möhkəm bir zəmindir. Biz bu zəmin üzərində yeni iqtisadi inkişaf modeli qurmalıyıq və qururuq. Bizdə həm təcrübə, həm də iradə var. Deyə bilərəm ki, aparıcı beynəlxalq maliyyə qurumları bizim bu siyasətimizi dəstəkləyir. Mənim həm Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı və digər mötəbər maliyyə qurumlarının rəhbərləri ilə keçirdiyim çoxsaylı görüşlər göstərir ki, aparılan islahatlara bu qurumlar tərəfindən çox böyük dəstək var. Onlar da öz tərəfindən dəstəyini bundan sonra da göstərmək, bu işləri bizimlə birlikdə görmək istəyirlər. Biz də bunu istəyirik və onların təcrübəsi, o qurumlarda fəaliyyət göstərən mütəxəssislər, əlbəttə ki, bu işlərə cəlb olunacaqdır. Beləliklə, biz indiki yol xəritələrinin icrasını uğurla başa vurmalıyıq və 2021-2025-ci illəri əhatə edən yeni proqramı işləyib təqdim etməliyik.

O ki qaldı digər məsələlərə, ilin sonuna qədər elektrik enerjisi ilə bağlı modernləşdirmə prosesi davam etdiriləcək. Mövcud stansiyaların potensialının gücləndirilməsi üçün işlər aparılır. Yenidənqurma, bərpa, modernləşmə işləri nəticəsində biz mövcud stansiyalarda ən azı 400-500 meqavat əlavə enerji gücü əldə edə bilərik. Artıq bütün hesablamalar var və əminəm ki, biz bu işdə uğur qazanacağıq. Beləliklə, hesab edirik ki, ancaq modernləşmə nəticəsində bir böyük yeni stansiya qurulacaq. Əgər biz "Şimal-2" stansiyasının tikintisini də əlavə etsək, - o da təqribən 400-500 meqavat gücünə malik stansiya olacaq, - bizim enerji potensialımız daha da artacaq və ölkəmizin artan sənaye potensialı, artan əhali, əlbəttə ki, gələcəkdə də etibarlı qaydada elektrik enerjisi ilə təmin ediləcəkdir.

Giriş sözümdə qeyd etdim ki, qazlaşdırma Azərbaycanda ən yüksək səviyyədədir və bu il də qazlaşdırma ilə bağlı işlər aparılır. Biz imkanlardan maksimum istifadə etməliyik ki, bu gün hələ də qaz almayan qəsəbələrə, kəndlərə qaz xətləri çəkək. Şəhərlərdə bəzi yerlərdə qazın təzyiqi aşağıdır və bu məsələ ilə bağlı müvafiq göstərişlər verildi, işlər görülür ki, əhaliyə keyfiyyətli qaz verilsin. Eyni zamanda, "Azəriqaz" tərəfindən bəzi hallarda əsası olmayan işlərə də son qoyulmalıdır. Çünki mənə məlumat verilir ki, "Azəriqaz" özü birtərəfli olaraq hansısa qaydalar tətbiq edir və bəzi hallarda insanlara problemlər yaradır. Buna son qoyulmalıdır və burada maksimum şəffaflıq, ədalət olmalıdır. Çünki yerlərdən belə siqnallar gəlir ki, həm sayğaclarla, həm qazın keyfiyyəti ilə bağlı problemlər var, bunlar tamamilə aradan qaldırılmalıdır. Bütün sahələrdə - elektrik enerjisi, içməli su, təbii qazın verilməsi ilə bağlı maksimum şəffaflıq və ədalət olmalıdır.

İçməli su layihələrinin icrası ilə bağlı deyə bilərəm ki, bugünə qədər 38 şəhərdə bu layihələr başa çatıb. Əvvəlki illərdə su ilə təmin edilməyən 38 şəhərə biz təmiz içməli su xətləri çəkdik ki, suyun keyfiyyəti Dünya Səhiyyə Təşkilatının standartlarına uyğundur. Bu ilin sonuna qədər əlavə 5 şəhərdə bu layihələr başa çatmalıdır və 12 şəhərdə işlər davam edir. Növbəti illərdə onlar da başa çatacaq.

Son illərdə meliorativ tədbirlərin həyata keçirilməsi geniş vüsət almışdır. Biz bir neçə il ərzində yüz minlərlə hektar yeni torpağa su xətləri çəkdik. Bu il biz ən azı əlavə 70 min hektara su xətləri çəkib, orada da meliorativ tədbirləri yaxşılaşdıracağıq. Minimum 1000 kilometr avtomobil yolu çəkilməlidir. Minimum ona görə deyirəm ki, biz ilin əvvəlində bu hədəfi götürmüşdük. Ancaq yerlərdən gələn təkliflər və müraciətlər deməyə əsas verir ki,



bu problem hələ də mövcuddur, baxmayaraq ki, 15 min kilometr avtomobil yolu çəkmişik. Ona görə də həm Bakı şəhərində, həm Bakı qəsəbələrində, - bildiyiniz kimi, indi bu işlər geniş vüsət alıb, - və bölgələrdə əlavə tədbirlər görüləcək. Bu proses su xətlərinin çəkilişi ilə uzlaşmalıdır. İlk növbədə, kommunikasiyalar, su xətləri çəkilməlidir, ondan sonra yollar. Yəni, biz bu işləri paralel şəkildə görürük.

Mən qeyd etdim ki, Azərbaycan bu gün xarici sərmayələrin qoyuluşu üçün öz imkanlarını təqdim edir və bu, hər bir ölkə üçün çox önəmli məsələdir. Şadam ki, qeyri-neft sektoruna investorlar tərəfindən böyük maraq var. Burada əsas məsələ bürokratik əngəlləri aradan götürməkdir. Biz potensial investoru cəlb etməliyik, investoru axtarmalıyıq, ona sübut etməliyik ki, Azərbaycana sərmayə qoysun. Ancaq bəzi hallarda hansısa yerli və ya xarici şirkət investisiya qoymaq istəyəndə onun qarşısında süni, bürokratik və digər əngəllər yaradılır. Bu, tamamilə qəbuledilməzdir, buna yol vermək olmaz. İnvestisiyaların cəlb edilməsi hər bir ölkənin iqtisadi inkişafı üçün əsas şərtlərdən biridir. Azərbaycanda dövlət investisiyaları qoyulur və qoyulmalıdır. Ancaq biz çalışmalıyıq ki, özəl sektor daha da böyük həvəslə investisiyalar qoysun. Biz buna nail oluruq və nail olacağıq. Dövlət hər zaman bu sahədə öz dəstəyini göstərəcək.

Bu il məcburi köçkünlər üçün yeni yaşayış binalarının tikintisi nəzərdə tutulur. Bildiyiniz kimi, son illərdə yüzdən çox köçkün şəhərciyi salınıb. Biz 10 ildən çoxdur ki, çadır şəhərciklərini ləğv etdik və məcburi köçkünlərə yaxşı şərait yaratdıq. Ancaq hələ də ağır vəziyyətdə yaşayan köçkünlər var və onların problemlərinin həlli bizim üçün əsas məsələlərdən biridir. Keçən il 6 min köçkün ailəsi üçün yeni müasir evlər tikilib, mənzillər təqdim edilib. İlin əvvəlində təqribən 6 min köçkün ailəsi üçün mənzillərin tikintisi nəzərdə tutulurdu, biz bu mənzillərin, evlərin sayını artıracağıq. Artıq müvafiq göstərişlər verildi, əlavə vəsait ayrılıb və işlər başlamışdır. Burada da ədalət əsas prinsip olmalıdır və bu gün bu prinsip təmin edilir.

Bu il şəhid ailələrinə dövlət tərəfindən ən azı 800 mənzil veriləcək. Bütövlükdə, 6500-dən çox şəhid ailəsi dövlət tərəfindən mənzillə təmin olunub. Qarabağ müharibəsi əlillərinə bu il ən azı 600 minik avtomobili veriləcəkdir. Bugünə qədər 6200 avtomobil verilibdir. Onu da bildirməliyəm ki, bu həcmdə bu təcrübə ancaq Azərbaycanda mövcuddur. Biz bu işləri ardıcıl şəkildə görürük və görməliyik. Ona görə bizim bu sahədəki siyasət bir daha onu göstərir ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Biz ağır, çətin vəziyyətdə yaşayan insanlara mütləq kömək etməliyik və edirik. Qeyd etdiyim rəqəmlər bunun əyani sübutudur.

İş yerlərinin yaradılması Azərbaycanda daimi proses olmalıdır. Son 15 il ərzində 2 milyon iş yeri yaradılmışdır. Ancaq, eyni zamanda, bu müddət ərzində əhali 1,7 milyon artmışdır. Bu, çox müsbət haldır. Bildiyiniz kimi, bu il 10 milyonuncu vətəndaş dünyaya gəlib. Artıq biz 10 milyonuq. Bu, tarixi nailiyyətdir. Əlbəttə ki, bu, ölkəmizi gücləndirir, potensialımızı artırır. Ancaq, eyni zamanda, artan əhali infrastruktur layihələrinin, iş yerlərinin yaradılması üçün əsas şərtdir. Çünki uşaq bağçaları, məktəblər tikilməlidir, infrastruktur layihələri icra edilməlidir. Sovet vaxtında yaradılmış infrastruktur ovaxtkı əhaliyə hesablanmışdı. İndi Bakı şəhəri böyüyüb, əhalisi artıb, rayonlarda da əhali artıb. Ona görə bu məsələyə biz daim diqqət göstərməliyik. Misal üçün, bir çox infrastruktur layihələri, o cümlədən içməli su layihələri artan əhalini nəzərə almaq şərtilə 2030-cu ilə qədər hesablanıb.

Yenə də deyirəm, iş yerlərinin yaradılması üçün sərmayə qoyuluşu əsas vəzifədir. Dövlət tərəfindən yaradılan iş yerləri, sadəcə olaraq, sosial xarakter alır. Biz bunu edirik və edəcəyik. Ancaq bu missiyanı özəl sektor sərmayə qoyuluşu hesabına öz üzərinə götürməlidir. Sərmayə qoyuluşu olmasa iş yerləri necə yaradıla bilər?! Dövlət daim iş yerlərini yarada bilməz. Biz, sadəcə olaraq, işsizliyin azaldılması üçün bu işləri görürük. Bildirməliyəm ki, bu il 40 min ödənişli ictimai iş yeri açılır. Mənə verilən məlumata görə, artıq 35 min insan bu il ödənişli ictimai işlərlə təmin edilib. Bu, yenə də deyirəm, sosial təşəbbüsdür, sosial dəstəkdir. Ancaq özəl sektor, ilk növbədə, sərmayə qoymalıdır, iş yerləri yaratmalıdır və rəqabətqabiliyyətli məhsul istehsal etməlidir.

İş yerlərinin yaradılması üçün, əlbəttə ki, vacib amillərdən, vasitələrdən biri özünüməşğulluq proqramıdır. Biz buna da başlamışıq. Bu proqram çox böyük rəğbət qazanıb. Biz hər il özünüməşğulluq proqramı çərçivəsində təqribən 7 minə yaxın insanı işə cəlb etmək fikrindəyik. Ancaq yerlərdən gələn sifarişlər qat-qat çoxdur. Bunu biz nəzərə almalıyıq və öz planımıza düzəlişlər etməliyik. Bu, əlbəttə ki, təkcə maliyyə vəsaiti tələb edən məsələ deyil, burada bir çox texniki məsələlər, vasitələrin alınması var, ondan sonra, nəzarət mexanizmi tətbiq edilməlidir. Bəzən müəyyən vasitələr vətəndaşlara veriləndən sonra bəzi vətəndaşlar o vasitələrdən səmərəli şəkildə istifadə edə bilmirlər və bu imkanı əldən verirlər. Ona görə burada, əlbəttə ki, dövlət tərəfindən həm tövsiyə verilməlidir, - mən bilirəm ki, treninqlər də keçirilir, - eyni zamanda, nəzarət də kifayət qədər güclü olmalıdır. Azərbaycanda özünüməşğulluq proqramının həm məşğulluq, həm iqtisadi inkişaf, həm də istehsal baxımından çox böyük gələcəyi var. Onu da bildirməliyəm ki, aparıcı beynəlxalq maliyyə qurumlarının, misal üçün, Dünya Bankının, digər bankların rəhbərləri ilə görüşlər əsnasında bu məsələni də mən qaldırmışdım və onlarda da buna böyük maraq var. Biz onları cəlb etməliyik. Bizim indi maliyyə imkanlarımız var. Ancaq təcrübə baxımından, onlarda olan təcrübə bizdə yoxdur. Çünki biz bu işə təzə başlamışıq, onlar isə dünyanın müxtəlif yerlərində bu proqramı təşviq edirlər. Ona görə özünüməşğulluq proqramına daim diqqət göstərilməlidir. Mən bu mövzu ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişəm. Məhz ona görə ki, bu, çox vacib məsələdir.

Qeyd etdiyim kimi, bu il maaşlar, pensiyalar artırıldı və bu proses davam etdiriləcək. Mən bildirmişəm, biz bu məsələni daim diqqətdə saxlayırıq. Qeyd etdim ki, son 15 il ərzində maaşlar və pensiyalar dəfələrlə artıb. Ancaq bu, bizi tam qane edə bilməz. Ona görə bundan sonra da minimum əməkhaqqı, minimum pensiya və digər sosial müavinətlərin artırılması nəzərdə tutulur. İmkan daxilində biz bunu edəcəyik. Bu sahədə öz siyasətimizi ardıcıl şəkildə aparacağıq.

Sosial infrastrukturla bağlı, - bu da daim diqqət mərkəzində olan məsələdir, - bildirməliyəm ki, bu il 100-ə yaxın məktəb tikiləcək və ya əsaslı təmir ediləcək, o cümlədən modul tipli məktəblər. Bunun da çox böyük faydası var, xüsusilə ucqar kəndlərdə. Bu məktəblər həm tez bir zamanda ərsəyə gəlir, həm də keyfiyyət baxımından çox yüksək standartlara cavab verir. Beləliklə, hesab edirəm ki, biz qəzalı məktəblər problemini bu il, uzaqbaşı gələn il həll edəcəyik. Yəni, Azərbaycanda bir dənə də olsun qəzalı məktəb olmamalıdır. Bu istiqamətdə böyük işlər görülüb və görüləcək.

Bu il 10-a yaxın yeni mərkəzi rayon xəstəxanası fəaliyyətə başlayacaq. Beləliklə, Azərbaycanda bir dənə də şəhər, rayon olmayacaq ki, orada ən müasir standartlara cavab verən tibb mərkəzi olmasın.

Üç olimpiya idman mərkəzinin istifadəyə verilməsi nəzərdə tutulurdu, onlardan biri artıq açıldı. Altı milyon insan dövlət hesabına tibbi müayinədən keçəcəkdir. Bu da bizim təşəbbüsümüzdür, çox ciddi sosial addımdır və vətəndaşlar bundan faydalanırlar. Hər bir vətəndaş il ərzində öz sağlamlığına fikir verməlidir və müayinədən keçməlidir. Dövlət bu şəraiti yaradıb. İlk növbədə, hər bir yerdə müasir avadanlıqlar var. Eyni zamanda, dövlət hesabına bu məsələ öz həllini tapır.

İcbari tibbi sığortanın tətbiqi ilə bağlı artıq qeyd etdim ki, 3 pilot layihənin təcrübəsi çox müsbətdir. Artıq məruzədə də səsləndi ki, biz indi genişmiqyaslı proqramın icra edilməsinə hazırıq. Bu da çox ciddi sosial addım olacaqdır.

Bakı şəhərində nəqliyyat-təsərrüfat problemlərinin həlli üçün əlavə tədbirlər nəzərdə tutulur, şəhər nəqliyyatı təkmilləşir. Bu il 300 ən müasir avtobusun Bakıya gətirilməsi nəzərdə tutulur. Beləliklə, bu, şəhər nəqliyyatına böyük töhfə olacaqdır. Şəhərə yeni metro vaqonları gətiriləcəkdir. Yüzlərlə yeni lift quraşdırılacaq. Bu məqsədlər üçün dövlət büdcəsində vəsait nəzərdə tutulur. Şəhərətrafı dəmir yolunun çəkilişi prosesi davam etdirilir. Bu da şəhər nəqliyyatının işini böyük dərəcədə yaxşılaşdıracaqdır.

Bu il Ağsu, İsmayıllı, Şamaxı rayonlarında baş vermiş zəlzələnin fəsadlarının aradan qaldırılması üçün fəal işlər gedir. Müntəzəm olaraq mənə məruzə edilir. Minlərlə yeni ev tikilib əsaslı təmir ediləcək. Dövlət vəsaiti ayrıldı. Yenə də demək istəyirəm ki, biz bu məsələyə çox operativ şəkildə yanaşdıq. Vətəndaşların problemlərini nəzərə alaraq çalışmalıyıq ki, bu işlər tez bir zamanda başa çatsın. Halbuki bu, ağır işdir, ilk növbədə, təhlil aparılmalıdır, komissiya işləməlidir, dəymiş ziyanın həcmi müəyyən edilməlidir və tikinti işləri aparılmalıdır. Əlbəttə ki, bu, zaman tələb edən bir məsələdir. Həm dövlət qurumları, həm də özəl sektor bu işlərə qoşulub. İşlər indi geniş vüsət alıb. Həm vətəndaşların evləri təmir olunur, yeni evlər tikilir, həm də çoxmərtəbəli binaların tikintisi başlamışdır. Çalışmalıyıq ki, bu məsələ də qısa müddət ərzində öz həllini tapsın. Mən bu məsələ ilə bağlı öz fikirlərimi bildirmişdim. Bir daha demək istəyirəm ki, inkişaf etmiş ölkələrdə bu işləri sığorta şirkətləri görür. Vətəndaşın evi sığortalıdır, sığorta pulunu alır, gedir özü üçün ev tikir. Nəzərə alsaq ki, bizdə belə deyil, dövlət bu məsələni öz üzərinə götürür. Bir daha demək istəyirəm ki, ən gözəl nümunə göstərən ölkələrdən biri Azərbaycandır, həm keyfiyyət, həm müddət, həm operativlik və həm də vətəndaşlara qayğı baxımından.

Ona görə Azərbaycan vətəndaşları əmin ola bilərlər ki, ən ağır məqamlarda dövlət onların yanındadır. Dövlət orqanları, mərkəzi və yerli icra orqanlarının nümayəndələri daim vətəndaşlara qayğı, diqqət göstərməlidirlər, daim vətəndaşların yanında olmalıdırlar. Müvafiq icra orqanlarının rəhbərlərinə və məsul şəxslərə göstəriş verildi ki, onlar daim vətəndaşların problemləri ilə məşğul olmalıdırlar. İcra başçıları qəsəbələrdə, kəndlərdə olmalıdırlar, vətəndaşların problemlərini eşitməlidirlər, onlara biganə qalmamalıdırlar, onlara şərait yaratmalıdırlar, onlara dəstək olmalıdırlar, kömək göstərməlidirlər. Bu sahədə çox ciddi islahatlar aparılır və aparılacaq.

Ümumiyyətlə, idarəetmə sahəsində islahatların aparılmasına böyük ehtiyac var. Mən bunu demişəm, bu gün də, əvvəlki çıxışlarda da. Hər bir sahədə inkişaf üçün böyük meydan var. Hər bir sahədə, əgər o sahəyə rəhbərlik edən insanlar öz işinə vicdanla yanaşarlarsa, mütləq nəticə də olacaq. Bu, ictimaiyyət tərəfindən də mütləq yüksək qiymətləndiriləcək. Ona görə bir daha demək istəyirəm ki, yerli və mərkəzi icra orqanlarının nümayəndələri daim vətəndaşların problemləri ilə məşğul olmalıdırlar.

Biz regional inkişaf proqramını böyük dərəcədə yerlərdən gələn məktublar, sifarişlər əsasında formalaşdırmışıq. Hansı problemlər insanları narahat edir, biz o problemləri də dövlət proqramına salmışıq və onları həll edirik. Amma bəzi hallarda bu layihələrin icrası ilə bağlı da bir çox qüsurlar, bir çox çatışmazlıqlar olur. Bunlar aradan qaldırılmalıdır. Əlbəttə ki, ictimai nəzarət daha da güclü olmalıdır.

Ölkəmizdə makroiqtisadi vəziyyət sabitdir. Mən qeyd etdim, inflyasiya aşağı səviyyədədir - 2 faizdən bir qədər çoxdur. Manatın məzənnəsi sabitdir. Belə olan halda, əlbəttə ki, süni qiymət artımına yol vermək qətiyyən olmaz. Bəzi hallarda bəzi məhsulların qiymətlərində artım olur. Bunun heç bir əsası yoxdur. Bəzi hallarda mövsümi xarakter daşıyır. Amma bəzi hallarda qiymətlər süni şəkildə artırılır. İndi ölkə iqtisadiyyatında canlanma var. İnsanların alıcılıq qabiliyyəti artır. Biz bunu indi statistik göstəricilərdən görürük. İndi istehlak bazarına nəzarət edən qurumlar bunu görür. Maaşlar, müavinətlər artır, problemli kreditlərlə bağlı ödənişlər başlamışdır. Ancaq biz imkan verə bilmərik ki, bundan hansısa natəmiz adamlar, möhtəkirlər istifadə etsinlər, qiymətləri süni şəkildə qaldırsınlar, yaxud da ki, hansısa bir inhisarçılıqla məşğul olsunlar. Ona görə istehlak qiymətlərinə daim nəzarət olmalıdır. Süni qiymət artımına qətiyyən yol verilməməlidir. Müvafiq qurumlar bu işlərlə çox ciddi məşğul olmalıdırlar.

Sənaye istehsalı sahəsində iri sənaye müəssisələrinin yaradılması prosesi yaxşı nəticələr verir. Ancaq biz çalışmalıyıq ki, kiçik, orta sənaye müəssisələri daha da fəal olsun, həm yeniləri yaradılsın, həm də fəaliyyətdə olan sənaye obyektləri öz işini təkmilləşdirsinlər ki, rəqabətqabiliyyətli məhsullar istehsal olunsun. Bu, həm iş yerləridir, həm yerli istehsaldır, idxaldan asılılığın aradan qaldırılmasıdır. Sənaye parklarının bu sahədə böyük əhəmiyyəti var. Bizdə sənaye parklarında, sənaye zonalarında 60-a yaxın rezident var. Bu parklara, zonalara artıq 3,3 milyard dollar sərmayə qoyulub. Əgər biz sənaye parklarını yaratmasaydıq, bu vəsait də qoyulmazdı. Orada güzəştli şərtlər tətbiq olunur, investorlar vəsait qoyur, iş yerləri yaradır və nəticə etibarilə ölkəmiz inkişaf edir.

İnşaat sektorunun inkişafına biz daha böyük diqqət göstərməliyik. İnşaat sektorunda hazırda canlanma var. İnşaat sektorunda minlərlə, on minlərlə insan işləyir. Hazırda Bakı şəhərində 400-ə yaxın çoxmərtəbəli bina tikilir. Bu, onu göstərir ki, bu sektorda çox böyük canlanma, irəliləyiş var, tikinti materiallarının istehsalı artır. Yəni, inşaat sektoru iqtisadiyyat üçün çox böyük əhəmiyyət daşıyan sahədir. Burada, əlbəttə ki, dövlət tərəfindən sahibkarlara tam dəstək verilməlidir, bütün bürokratik əngəllər aradan qaldırılmalıdır. Əlbəttə ki, sahibkarlar da dövlət nəzarəti altında bütün memarlıq və şəhərsalma qaydalarına əməl etməlidirlər.

Mənzil İnşaatı Dövlət Agentliyinin xətti ilə birinci sosial evlər layihəsi uğurla başa çatıb. Yasamal yaşayış kompleksi istifadəyə verilib. Mən bu kompleksin açılışında olmuşam. İndi isə ikinci layihə icra edilir - Hövsan qəsəbəsində. Orada indi 3 minə yaxın mənzil inşa edilir. Bu qurum - MİDA mənim təşəbbüsümlə yaradıldı və məhz sosial məna daşıyan bir layihədir. Sosial evlərin tikintisi minlərlə ailənin mənzillə təmin edilməsi üçün şərait yaradır. Bu, minlərlə iş yeri yaradır və eyni zamanda, inşaat sektoruna böyük təkan verir. Yəni, təkcə bir yaşayış kompleksində 3 minə yaxın mənzilin tikintisi görün nə qədər insanı bu işlərə cəlb edir, nə qədər sahibkarı işlə təmin edir.

Kənd təsərrüfatı ilə bağlı aparılan islahatlar haqqında məruzə edildi. Bu sahə də daim diqqət mərkəzindədir. Bildiyiniz kimi, dövlət bu sahəyə çox böyük dəstək, yardım göstərir. Güzəştli şərtlərlə gübrələr, yanacaq, subsidiyalar, texnika verilir. Mən deyə bilərəm ki, Azərbaycan bu sahədə dünya miqyasında fermerlərə dəstək baxımından ən qabaqcıl ölkələrdən biridir. Həm də onlardan vergilər də tutulmur, torpaq vergisi istisna olmaq şərti ilə. Yəni, bu sahəyə maksimum dəstək verilir. Bu sahədə aparılan islahatlar, əminəm ki, daha da böyük nəticələrə gətirib çıxaracaq. Hesab edirəm ki, indiki 3,6 faiz artım bizim potensialımızı tam əks etdirmir. Çünki bu qədər işlər görülür - həm meliorativ tədbirlər, həm dövlət tərəfindən dəstək. Fındıqçılıq, üzümçülük, pambıqçılıq, taxılçılıq, meyvəçilik, tərəvəzçilik sahəsində görülən işlər indi burada məruzədə də səsləndi. Yəni, bizim istehsalımız və ixracımız böyük dərəcədə artır. Mən hesab edirəm ki, görülmüş işləri və islahatları nəzərə alsaq kənd təsərrüfatında artım daha da yüksək ola bilər.

Azərbaycanda kənd təsərrüfatı texnoloji sahəyə çevrilməlidir və burada yeni mexanizmlər, o cümlədən aqrar sığorta mexanizmi tətbiq edilməlidir. Bununla paralel olaraq, biz kəndlərdə investisiya layihələrinin icrası ilə bağlı düşünməliyik. Mən tapşırıq verirəm ki, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birgə işləsinlər. Bəlkə işçi qrup da yaradıla bilər ki, kəndlərdə investisiya layihələrinin icrası ilə bağlı təkliflər hazırlansın. Hər bir kənd üzrə belə proqram ola bilər. Biz investisiyaları daha çox şəhərlərə cəlb edirik. Ancaq kəndlərin yeni inkişaf konsepsiyası hazırlanmalıdır.

Əlbəttə ki, mən bütün bu işlərdə sahibkarların rolunu qeyd etmək istərdim. Son vaxtlar Azərbaycanda güclü sahibkarlar sinfi formalaşıb. Mən sahibkarları daim dəstəkləyirəm, sahibkarlarla çoxsaylı görüşlərdə onlara öz dəstəyimi ifadə edirəm, dövlət onları dəstəkləyir, həm güzəştli kreditlərlə, həm tövsiyələrlə və yaradılmış şəraitlə. Əgər infrastruktur layihələri olmasa idi, sahibkar investisiya qoya bilməzdi. Əgər işıq, qaz, yol yoxdursa, hansı sahibkar harasa vəsait qoya bilər. Biz bunu yaratdıq, üstəlik kreditlər də verdik. Bugünə qədər sahibkarlara 2 milyard manatdan çox güzəştli şərtlərlə kreditlər verilmişdir. Təkcə bu il 170 milyon manat həcmində kredit veriləcək, əvvəllər verilmiş və qaytarılan kreditlər hesabına. Ona görə sahibkarlar bundan sonra da fəal olmalıdırlar və yeni müəssisələr, iş yerləri yaradılmalıdır. Mən onlara tövsiyə etmişdim ki, mövcud müəssisələrdə əlavə iş yerləri yaratsınlar. Çünki dövlət 40 min ödənişli ictimai iş yeri yaradır. Mənə verilən məlumata görə, sahibkarlar bu il təqribən 8 min ödənişli ictimai iş yeri yaradacaqlar. Bu, onlar üçün böyük bir yük olmayacaq, ancaq vətəndaşların məşğulluq problemini həll edəcək. Baxın, dövlət və özəl sektor ancaq bir il ərzində 50 minə yaxın ictimai iş yeri yaradacaq. Əlbəttə, biz gözləyirik ki, yeni müəssisələr, yeni sənaye sahələri yaradılsın və burada iş yerləri kifayət qədər çox olsun.

Bu il bölgələrdə beş "ASAN xidmət" mərkəzinin yaradılması nəzərdə tutulur və beləliklə, onların sayı 20-yə çatacaq. Mənə verilən məlumata görə, Bakı şəhərində də yeni mərkəzlərin tikintisinə ehtiyac var. Çünki "ASAN xidmət"in funksiyalarının həcmi və müraciətlərin sayı artır, bəzi yerlərdə növbələr yaranır. Biz "ASAN xidmət"i məhz ona görə yaratdıq ki, bu, asan olsun, bu xidmət rahat olsun, növbə olmasın, heç bir pozuntu olmasın, şəffaf olsun. Buna nail olmuşuq. "ASAN xidmət"in bəyənmə əmsalı 100 faizə yaxındır. Ancaq nəzərə alsaq ki, funksiya genişlənir və müraciətlərin sayı artır, bəzi yerlərdə növbələr yaranır. Ona görə göstəriş vermişəm ki, - ilkin vəsait də ayrıldı, - Bakı şəhərində əlavə iki "ASAN xidmət" mərkəzi yaradılsın və beləliklə, onların sayı 22-yə çatacaq.

Görülmüş işlər deməyə əsas verir ki, biz düzgün yoldayıq. Buna heç bir şübhəmiz yoxdur. İqtisadi, sosial sahələrdə və bütün başqa sahələrdə islahatlar bundan sonra da aparılacaq. Bildiyiniz kimi, bu yaxınlarda məhkəmə-hüquq sahəsində islahatlarla bağlı müvafiq fərman imzalanmışdır. Hesab edirəm ki, onun icrası bu sahədə də ciddi dönüşə səbəb olacaq. Yəni, biz gərək hər bir sahədə irəli gedək. Yeniliklər, müsbət təcrübə, dünyada mövcud olan ən mütərəqqi yanaşma Azərbaycanda tətbiq edilməlidir. Nəzərə almalıyıq ki, bizim neft-qaz sektorumuz da iqtisadiyyata böyük dəstəkdir. Nəzərə almalıyıq ki, biz indi nəqliyyat mərkəzlərindən birinə çevrilirik. Bu yaxınlarda Çində keçirilmiş "Bir kəmər, bir yol" Forumunda Azərbaycanın iştirakı bir daha onu göstərir ki, ölkəmiz bu önəmli layihənin tərkib hissəsidir. Bizim gəlirlərimiz artacaq, maliyyə və iqtisadi imkanlarımız daha da böyüyəcək.

Biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik, daim irəliyə baxmalıyıq. Əminəm ki, biz bu ili də uğurla başa vuracağıq, 2019-cu il də ölkəmiz üçün, xalqımız üçün uğurlu olacaq. Sağ olun.

# ABŞ Azərbaycana dəstəyə görə minnətdardır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Corc Kenti qəbul edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev ölkələrimiz arasında əməkdaşlığın inkişafından məmnunluğunu ifadə etdi, əlaqələrimizin siyasi, iqtisadi, ticarət, enerji, təhlükəsizlik və digər sahələrdə genişləndiyini vurğuladı. Azərbaycanın ABŞ ilə ikitərəfli əlaqələri tərəfdaşlıq müstəvisində davam etdirmək niyyətində olduğunu deyən dövlət başçısı son dövrlər ərzində ölkələrimiz arasında qarşılıqlı təmasların və tədbirlərin əhəmiyyətini vurğuladı və bu müsbət dinamikanın davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

Keçən ilin oktyabrında Azərbaycana səfərini xatırlayan ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Corc Kent ikitərəfli əlaqələrimizdə olan bu müsbət dinamikanı davam etdirmək məqsədilə ölkəmizə səfər etdiyini dedi, ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun ölkəmizə səfəri və onun ardınca aparılan danışıqların əhəmiyyətini vurğuladı.

Görüşdə dövlət başçısı ABŞ Prezidenti Donald Trampın "Cənub qaz dəhlizi" layihəsinə göstərdiyi dəstəyi yüksək dəyərləndirdi.

ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Corc Kent, öz növbəsində, Azərbaycanın Əfqanıstanda Qətiyyətli Dəstək Missiyası çərçivəsində NATO-ya üzv və tərəfdaş dövlətlər, o cümlədən ABŞ üçün təmin edilən tranzit-logistika dəstəyinə görə minnətdarlığını ifadə etdi.

Söhbət zamanı ölkəmizin demokratik inkişafı, məhkəmə-hüquq sistemi və sosial-iqtisadi sahədə aparılan islahatlara dair fikir mübadiləsi aparıldı.

# "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 82-ci kitabı çapdan çıxıb




Bütün işlərimizin, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşı yaxşı yaşamalıdır və yaxşı yaşamaq üçün imkan olmalıdır. Ona görə də sosial məsələlərin həlli, xüsusilə təhsillə, səhiyyə ilə bağlı məsələlər həmişə bizim üçün prioritet olubdur. Son illərdə 3000-dən çox məktəb, 600-dən çox tibb mərkəzi yaradılıb və onlar bu gün insanlara xidmət göstərir. Eyni zamanda, bölgələrdə yaradılmış şərait böyük şəhərlərə miqrasiyanın da qarşısını alır. Biz artıq bunu da görürük ki, əvvəlki illərdə Bakıya bütün bölgələrdən müşahidə olunan miqrasiya indi azalıbdır, eyni zamanda, əks proses də başlayıb. İndi insanlar şəhərlərdən kəndlərə qayıdırlar. Çünki kənd təsərrüfatının inkişafı üçün çox gözəl imkanlar yaradılıb.

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 82-ci kitabında yer alan bu fikirləri dövlət başçısı Lənkəranda keçirilmiş respublika müşavirəsində söylədiyi nitqində səsləndirib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2017-ci ilin avqust ayından oktyabradək olan dövrü əhatə edir.

Çoxcildliyin 82-ci kitabında dövlət başçısının BMT Baş Assambleyasının 72-ci sessiyasında iştirak etmək üçün ABŞ-a səfəri çərçivəsində keçirdiyi yüksəksəviyyəli görüşlərə dair materiallar, sessiyanın açılışında çıxışının mətni, İslam Əməkdaşlıq Təşkilatının Elm və texnologiya üzrə birinci sammitində iştirak etmək üçün Qazaxıstan Respublikasına işgüzar səfəri barədə informasiyalar yer alıb. Azərbaycan Prezidenti bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək verməyə çağırıb.

Kitaba Prezident İlham Əliyevin Gürcüstan, Türkiyə, Koreya Respublikası, Rusiya, Fransa, Vyetnam və digər ölkələrin, ATƏT-in, NATO-nun, habelə Avropa Yenidənqurma və İnkişaf Bankının, Beynəlxalq Valyuta Fondunun Bakıda keçirilən beynəlxalq tədbirlərdə iştirak etmək üçün ölkəmizə səfər etmiş yüksəkvəzifəli şəxslərini, nümayəndə heyətlərini qəbul etməsinə dair materiallar da daxil edilib.

Oxucular bu nəşrdə dövlət başçısının "Azərbaycan iqtisadiyyatının strateji yol xəritəsi: hesabatlılıq və şəffaflıq problemləri" mövzusunda beynəlxalq elmi-praktik konfrans iştirakçılarına məktubu, "Azəri", "Çıraq" və "Günəşli" neft yataqları üzrə yeni sazişin imzalanması mərasimində, Milli Olimpiya Komitəsinin 25 illik yubileyinə həsr olunmuş tədbirdə söylədiyi nitqlərin mətnləri, habelə müxtəlif dövlətlərin başçılarına məktubları ilə tanış ola bilərlər.

Bu cilddə həmçinin Prezident İlham Əliyevin Cəlilabad, Lənkəran, Neftçala, Salyan, Qobustan, Şamaxı rayonlarına səfərləri zamanı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşlərinə dair informasiyalar, bölgələrdə iqtisadiyyat, nəqliyyat, sosial infrastruktur layihələrinin və məişət obyektlərinin açılışlarında etdiyi çıxışların mətnləri, Bakıda orta məktəblərdə əsaslı təmirdən sonra yaradılan şəraitlə tanışlığı barədə materiallar toplanıb.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 82-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# PREZİDENTİN mövqeyi: "İslahatlara alternativ yoxdur"

*Əvvəli 1-ci səh.*

Bakı dünyanın ən gözəl şəhərlərindəndir, Azərbaycan isə Şərqin Cenevrəsi kimi məşhurlaşmaqdadır.

Xalq-iqtidar birliyi qırılmaz sıx tellərlə bağlanmış, ölkə daxilində dinlərarası, millətlərarası münasibətlərin inkişafında Azərbaycan bütün bəşəriyyət üçün nümunəvi, milli-mənəvi dəyərlərə sadiq tolerant ölkədir.

İlham Əliyev müşavirədə keçən il prezident seçkilərindən sonra islahatların yeni mərhələsinin başlandığını və son 15 ildə Azərbaycan qədər dünyada inkişaf edən ikinci ölkənin olmadığını bəyan etdi. Birinci rübdə büdcə daxilolmalarının artması sayəsində əlavə maliyyə resursu formalaşmış, ilin əvvəlindən ümumi daxili məhsul, sənaye istehsalı, qeyri-neft sənayesi, kənd təsərrüfatı, əhalinin gəlirləri artmış, ölkə iqtisadiyyatına 2,8 milyard dollar sərmayə qoyulmuşdur.

Dünyanın nüfuzlu reytinq agentliklərinin ölkəmizin müxtəlif sahələrdə apardığı islahatlara yüksək dəyər vermələri artıq adi bir hal almışdır. Bu barədə hər il dünyanın tanınmış sorğu agentlikləri müxtəlif məruzə və hesabatlarında geniş məlumatlar yayırlar.

Bu baxımdan "İrs" Fondunun hesabatı da xüsusi əhəmiyyət kəsb edir. Bu fond ABŞ-da ciddi nüfuza malikdir və onun fəaliyyətinə 100 minlərlə fiziki şəxs, həmçinin müxtəlif fond və korporasiyalar dəstək verir. "İrs" Fondu The Heritage Foundation - Strateji Araşdırmalar İnstitutudur. "İrs" Azərbaycanın mülkiyyət hüquqları, idarəetmənin şəffaflığı və ədliyyə sisteminin inkişafı sahələrində böyük irəliləyişlərə nail olduğunu məxsusi vurğulamış, Azərbaycanın 2018-ci ildə iqtisadi azadlıq və islahatlar sahəsində ən çox irəliləyən ölkə olduğunu təsdiq etmişdir. Fond həmçinin ölkəmizin sürətlə iqtisadi islahatlara getdiyini qeyd etmiş, indeksdə Azərbaycanın iqtisadi azadlıqlar sahəsində İtaliya və Fransa kimi Avropa ölkələrini geridə qoyduğu bildirilmişdir. Müharibə şəraitində yaşayan ölkənin bu cür yüksək iqtisadi islahatları həyata keçirməsi, sözün əsl mənasında bütün dünya iqtisadiyyatı üçün maraqlı və unikal hadisədir. Dünya Bankının "Doing Business" hesabatında da Azərbaycan 25-ci yerə layiq görülüb və 10 ən islahatçı ölkədən biridir.

Dövlət başçısı çıxışında ilin əvvəlindən böyükhəcmli sosial paketin icra edildiyini, minimum əməkhaqqının, minimum pensiyaların, məcburi köçkünlərə verilən müavinətlərin, tələbələrin təqaüdlərinin və digər sosial müavinətlərin artdığını bildirdi. Eyni zamanda problemli kreditlərlə və vaxtilə tikilən, lakin istismara qəbul edilməyən binalarla bağlı problemlərin də həll edildiyi diqqətə çatdırıldı. "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və vətəndaşın rifahı üçün biz əlimizdən gələni edirik" deyən Prezident İlham Əliyev bir daha sadə ölkə vətəndaşlarının qayğı və problemlərinin həllinin daim diqqət mərkəzində, gündəmdə olacağını vurğuladı.

Prezident İlham Əliyev yekun nitqində hazırda iqtisadiyyatın yeni inkişaf strategiyasının hazırlandığını, ölkədə aparılan islahatların beynəlxalq qurumlar tərəfindən dəstəkləndiyini bildirdi. Dövlət başçısı ilin sonuna qədər elektrik enerjisi, qazlaşdırma, içməli su, meliorativ tədbirlər, xarici sərmayələrin cəlbi, məcburi köçkünlər və şəhid ailələrinin yeni mənzillərlə təmin olunması ilə bağlı görüləcək işlərdən danışdı. Son 15 ildə ölkədə 2 milyon yeni iş yerinin yaradıldığını, əhalinin sayının 10 milyona çatdığını, bunun da qarşıda yeni vəzifələr qoyduğunu deyən Prezident İlham Əliyev bildirdi ki, bu il də sosial infrastruktur layihələrinin icrası diqqət mərkəzində saxlanılacaq. Sonda Prezident İlham Əliyev 2019-cu ilin də xalqımız üçün uğurlu olacağına əminliyini ifadə etdi.

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***

# Azərbaycan Prezidentindən humanist addım

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, əhalinin aztəminatlı hissəsinin sosial vəziyyətini daha da yaxşılaşdırmaq məqsədilə güzəştli qiymətlə təbii qazın illik istehlak limiti 1700 kubmetrdən 2200 kubmetrədək artırılıb.

AZƏRTAC xəbər verir ki, bu sözləri iqtisadiyyat naziri Şahin Mustafayev aprelin 30-da keçirdiyi brifinqdə Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının qərarını şərh edərkən deyib.

Nazir qeyd edib ki, aprelin 30-da Tarif Şurasının iclası keçirilib və müvafiq qərar qəbul edilib: "Bugünədək güzəştli tariflə illik istehlak limiti 1700 kubmetr idi. 1,5 milyon abonent və ya 6 milyon nəfər bu güzəştdən istifadə edirdi. Mövcud qərara əsasən, əlavə olaraq 300 min abonent (təxminən 1 milyon 200 min nəfər) də bu imkanlardan istifadə edəcək. Beləliklə, güzəştli tariflərdən abonentlərin 70 faizi istifadə edirdisə, bugünkü qərardan sonra həmin göstərici 85 faizədək artacaq. Qərar mayın 1-dən qüvvəyə minəcək".

"Bu qərar dövlət başçısının humanist addımı kimi, öz vətəndaşlarına diqqət və qayğısının göstəricisi kimi qiymətləndirilməlidir", - deyə nazir vurğulayıb.

# Əhali qrupu üzrə təbii qazın illik istehlak həcmi 500 kubmetr artırılıb

Əhali qrupu üzrə təbii qazın illik istehlak həcmi 500 kubmetr artırılıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının yaydığı məlumatda deyilir. Bildirilir ki, Azərbaycan Respublikası Prezidentinin sistemli və davamlı xarakter daşıyan sosial siyasətinə uyğun olaraq növbəti humanist addım atılıb. Belə ki, dövlət başçısının tapşırığına əsasən, əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi və güzəştin şamil edildiyi əhali istehlakçılarının əhatə dairəsinin daha da genişləndirilməsi məqsədilə Tarif (qiymət) Şurasının aprelin 30-da keçirilmiş iclasında əhali üzrə təbii qazın aşağı tariflə illik istehlak həcmi 1700 kubmetrdən 2200 kubmetrədək artırılıb. İstehlak həcminin dəyişməsi ilə əlaqədar olaraq yaranmış fərq dövlətin maliyyə vəsaiti hesabına qarşılanacaq.

Qeyd edək ki, 1,5 milyondan çox abonent (6 milyondan çox vətəndaş) təbii qazı yalnız aşağı tariflərlə istifadə edir.

Yeni qərara əsasən, əlavə olaraq daha 300 minədək əhali abonenti (1,2 milyondan çox vətəndaş) təbii qazı yalnız aşağı tariflərlə istifadə edəcək. Beləliklə, təbii qazı yalnız aşağı tariflə istehlak edən əhali abonentlərinin xüsusi çəkisi 70 faizdən 85 faizədək artacaq.

Qərar bu il mayın 1-dən qüvvəyə minir. Qərarla saytın "Şuranın qərarları" bölməsində tanış olmaq olar.

Atılmış bu humanist addım dövlət başçısının ölkə vətəndaşlarına böyük diqqət və qayğısının daha bir nümunəsidir.

# Azərbaycan-ABŞ əlaqələri müzakirə olunub

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Corc Kent ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Corc Kent Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qəbul edildiyini və faydalı fikir mübadiləsinin aparıldığını məmnunluqla qeyd edib.

Tərəflər iki ölkə arasında müxtəlif istiqamətlər, o cümlədən siyasi, iqtisadi, nəqliyyat, enerji və digər sahələr üzrə mövcud olan əməkdaşlıq münasibətlərinin uğurla inkişaf etdirilməsinə dair fikir mübadiləsi aparıblar. Azərbaycan-ABŞ İqtisadi Əməkdaşlıq Komissiyasının növbəti iclasının Bakıda keçirilməsi məsələsi müzakirə edilib.

Nazir Elmar Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqların cari vəziyyəti və xarici işlər nazirlərinin Moskvada baş tutmuş görüşü haqqında qarşı tərəfə məlumat verib. Münaqişənin tezliklə həllinin və Azərbaycanın işğal edilmiş ərazilərinin azad edilməsinin və məcburi köçkünlərin öz evlərinə və mülklərinə geri qayıtmasının bölgədə davamlı sülh və inkişafın təmin olunması baxımından əhəmiyyəti vurğulanıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan ilə Parlamentlərarası İttifaq arasında əməkdaşlıq əlaqələrinə dair fikir mübadiləsi aparılıb

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Parlamentlərarası İttifaqın (PAİ) prezidenti Qabriela Kuevas Barron ilə görüşüb.



Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Q.Kuevas Barron ölkəmizə bu növbəti səfəri zamanı "Formula-1" Azərbaycan Qran-prisi çərçivəsində keçirilmiş tədbirlərdə iştirak etdiyini bildirərək, bu mühüm dünya miqyaslı idman yarışının yüksək peşəkarlıqla təşkil edilməsinin şahidi olduğunu söyləyib. Onun qənaətinə görə, bu cür yaddaqalan hadisələr Azərbaycanın dünyada nüfuzunun daha da artırılmasına xidmət edən gözəl fürsətdir.

Nazir Elmar Məmmədyarov Azərbaycan ilə Parlamentlərarası İttifaq arasında sıx təmaslara toxunaraq, dünya parlamentlərinin nümayəndələrini birləşdirən bu qurumda Latın Amerikası ölkələrinin fəal iştirakını məmnuniyyətlə qeyd edib. Azərbaycanın cari ildə Qoşulmama Hərəkatında sədrliyə başlayacağını söyləyən nazir Elmar Məmmədyarov Qabriela Kuevas Barronu bununla bağlı Bakıda keçiriləcək Zirvə toplantısına dəvət edib.

Tərəflər Azərbaycan ilə Parlamentlərarası İttifaq arasında əməkdaşlığın bundan sonra daha da inkişaf edəcəyinə ümidvar olduqlarını vurğulayaraq, Latın Amerikası bölgəsində cərəyan edən proseslər barədə fikir mübadiləsi aparıblar.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Çoxmənzilli binaların istismarına icazə verilməsinə dair fərmanın icrası ilə bağlı FHN-də görüş keçirilib

Aprelin 30-da Fövqəladə Hallar Nazirliyinin (FHN) inzibati binasında "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 fevral tarixli fərmanının icrasına məsul olan müvafiq dövlət qurumlarının rəhbər şəxslərinin iştirakı ilə fərmanın tətbiq olunduğu yaşayış binalarının sifarişçiləri, MTK sədrləri və həmin binalarda yaşayan sakinlərin bir qismi ilə görüş keçirilib.

FHN-dən AZƏRTAC-a bildiriblər ki, görüşdə fövqəladə hallar naziri Kəmaləddin Heydərov, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Samir Nuriyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova, Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev, "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov, "Azəriqaz" İB-in baş direktoru Əkbər Hacıyev, "Azərişıq" ASC-nin sədr müavini Ramil Yusifov, Nazirlər Kabinetinin kommunikasiya, tikinti və kommunal təsərrüfat məsələləri şöbəsinin müdiri Qasım Abdullayev, Azərbaycan Prezidentinin iqtisadi məsələlər üzrə köməkçisi xidmətinin baş məsləhətçisi Feyruz Mustafayev, FHN-in aidiyyəti rəhbər şəxsləri iştirak ediblər.

Tədbirdə çıxış edən fövqəladə hallar naziri Kəmaləddin Heydərov "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 fevral tarixli fərmanının icrasının vəziyyəti barədə danışıb. Nazir qeyd edib ki, bəzi çoxmənzilli yaşayış binalarının istismara qəbulu ilə bağlı mövcud vəziyyət sakinlərin haqlı narazılığına səbəb olaraq, onların mülkiyyət hüquqlarının reallaşdırılmasına əngəllər yaradıb. Vətəndaşların gündəlik problemlərinin həllinə xüsusi həssaslıqla yanaşan dövlət başçısı İlham Əliyev illərdir həllini tapmayan bu məsələdə də qətiyyətli mövqeyini ortaya qoyub.

Nazir K.Heydərov fərmanın icrası istiqamətində FHN, SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyi, "Azərsu" və "Azərişıq" açıq səhmdar cəmiyyətlərinin, eləcə də müvafiq yaşayış binalarının sifarişçiləri qarşısında olduqca mühüm vəzifələrin durduğunu xatırladıb. Bildirib ki, bu baxımdan fərmanın icrasına məsul olan dövlət qurumları ilə tikinti fəaliyyəti subyektləri arasında məhsuldar qarşılıqlı əlaqənin təmin edilməsi mühüm əhəmiyyət daşıyır. Görüşün bu məqsədlə təşkil edildiyi və fərmanın icrası ilə bağlı qarşıya çıxan məsələlərin həlli istiqamətində fikir mübadiləsinin aparılmasının işlərin sürətləndirilməsinə təkan verəcəyi qeyd olunub.

Nazir deyib ki, işlər fərmanla müəyyən olunmuş zaman çərçivəsində həyata keçirilir. Fərmanda müəyyənləşdirildiyi kimi, ötən iki ay ərzində respublika üzrə istismarına icazə verilmədən faktiki istismar edilən bütün çoxmənzilli yaşayış binalarında müayinə işləri həyata keçirilib. Müayinələrin nəticəsində bu kateqoriyaya aid 26 binanın istismara hazır olması barədə müsbət rəy hazırlanaraq, aidiyyəti üzrə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə təqdim edilib. Nazir bildirib ki, FHN-in Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin inzibati binasında müvafiq qurumların səlahiyyətli nümayəndələrinin iştirakı ilə qərargah yaradılıb. Qərargahda 260 yaşayış binasının nümayəndələri qəbul edilib və onlara zəruri izahatlar verilib. FHN, "Azərsu" və "Azərişıq" açıq səhmdar cəmiyyətləri, "Azəriqaz" İstehsalat Birliyi bu məsələdə istənilən dəstəyi göstərməyə hazırdır.

Fərmanın icrasına məsul olan aidiyyəti qurumların rəhbər şəxsləri müayinə nəticəsində aşkarlanan qüsurlar, mövcud problemlər, onların həlli yolları və işlərin ümumi gedişi barədə məlumat veriblər. Bildirilib ki, fərmana uyğun olaraq növbəti mərhələ kimi beş ay müddətində çatışmazlıqlar aradan qaldırılmalı və binaların istismara qəbul olunması üçün aidiyyəti üzrə yenidən müraciət edilməlidir.

Sonra istismara hazırlıq baxımından müsbət rəyin verilməsi mümkün olmayan yaşayış binalarının sifarişçilərinin, MTK sədrlərinin və həmin binalarda yaşayan sakinlərin fikirləri, qarşıya çıxan məsələlərin aradan qaldırılması istiqamətində təklifləri dinlənilib. Çıxışlarda dövlət başçısının fərmanının əhəmiyyətindən danışılıb, mövcud problemlərin aradan qaldırılması ilə bağlı göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidentinə minnətdarlıq ifadə olunub.

Sonra fərmanın icrasından irəli gələn məsələlər geniş müzakirə edilib, mövcud problemlərin həlli yolları barədə ətraflı fikir mübadiləsi aparılıb.

# Argentina Respublikasının nümayəndə heyəti Heydər Əliyev Mərkəzində olub

Aprelin 30-da ölkəmizdə səfərdə olan Argentina Respublikası Milli Konqresinin Deputatlar Palatasının sədri Emilio Monzonun başçılıq etdiyi nümayəndə heyəti Heydər Əliyev Mərkəzi ilə tanış olub.



AZƏRTAC xəbər verir ki, qonaqlara dünya memarlığının nadir incilərindən sayılan Heydər Əliyev Mərkəzi haqqında məlumat verilib.

Qeyd olunub ki, Mərkəzin fəaliyyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının və ulu öndərin irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib. Mərkəzin həyata keçirdiyi layihələr Azərbaycan tarixinin, dilinin, mədəniyyətinin və digər milli sərvətlərin beynəlxalq aləmdə təbliğinə, elmin, təhsilin, mədəniyyətin, səhiyyənin, idmanın, ekologiyanın və iqtisadiyyatın müxtəlif sahələrinin dəstəklənməsinə və inkişafına xidmət edib.

Qonaqlar mərkəzdə "Klassik avtomobil sərgisi"ni ziyarət etdilər. Heydər Əliyev Mərkəzinin birinci mərtəbəsində fəaliyyət göstərən "Azərbaycan inciləri: tarixin axarında" adlı sərgidə qonaqlar Azərbaycan tarixinin bütün dövrlərini, həmçinin mədəniyyətinin müxtəlif sahələrini özündə əks etdirən eksponatlarla tanış olublar.

Mərkəzin "Mini Azərbaycan" sərgisində Bakıda və eləcə də Azərbaycanın digər bölgələrində yerləşən və tarixi-memarlıq əhəmiyyətinə malik 45 binanın maketi sərgilənir. İştirakçılara sərgilənən binaların tarixi və memarlığı haqqında ətraflı məlumat verilib.

Muzeylə tanışlıqdan sonra E.Monzon öz təəssüratlarını bölüşüb: "Onu deyə bilərəm ki, Bakı şəhəri, burada yaşayan insanlar və muzeylər məndə zəngin təəssürat yaradıb. Gördüklərim, eşitdiklərim məni çox heyrətləndirdi. Bakıda belə bir muzeyi ailəmlə ziyarət etməkdən çox məmnunam".

# "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabının müzakirəsi keçirilib

Aprelin 30-da Azərbaycan Dillər Universitetində (ADU) Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabının müzakirəsi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə açan ADU-nun rektoru, akademik Kamal Abdullayev müzakirəsi keçirilən kitabın müəllifin uzun zamandan etibarən elmi araşdırmalarının nəticəsi kimi işıq üzü gördüyünü bildirib: "Akademik Ramiz Mehdiyev tariximizin, ictimai-siyasi fikrimizin xüsusi əhəmiyyət daşıyan nöqtələrinə nüfuz edib. Bu kitab bir daha göstərir ki, Azərbaycan tarixinin çox vacib mənbələri olan sənədlərdən doğru-düzgün, məqsədəuyğun, konseptual şəkildə istifadə olunarsa, biz hansı perspektivlərə, üfüqlərə çıxa bilərik. Bu üfüqlərdən biri tariximizi bugünümüz qədər dərk etmək və müasir dövrdə ondan mənalı şəkildə istifadə etməkdir".

Rektor Kamal Abdullayev qeyd edib ki, 22 orijinal sənədin daxil edildiyi topluda akademik Ramiz Mehdiyev xanlıqlar dövrünün bir sıra mühüm problemlərinə, hadisə və şəxsiyyətlərə faktlar və etibarlı elmi mənbələr, arxiv sənədləri əsasında münasibət bildirir, həmin tarixi mərhələyə obyektiv qiymət verməyə mane olan məsələlərə aydınlıq gətirir. Bu kitab Azərbaycan tarixi və mənəvi düşüncəsini irəli aparmaq amalına xidmət edir.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının əməkdaşı Eldar Əmirov "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabının xüsusən geniş elmi ictimaiyyət tərəfindən böyük maraqla qarşılandığını və bunun təsadüfi olmadığını bildirib. Qeyd edib ki, Azərbaycan tarixşünaslığında xanlıqlar dövrünə baxış konseptual nöqteyi-nəzərdən indiyə qədər natamam vəziyyətdə olub. Xanlıqlar dövrü haqqında kifayət qədər əsər yazılsa da, bunlar ayrı-ayrı xanlıqların tarixinə aid olub. Akademik Ramiz Mehdiyev bu kitabında Azərbaycan tarixşünaslığında olan boşluqları və onların yaranma səbəblərini göstərməklə yanaşı, problemlərin aradan qaldırılmasına dair öz baxışlarını da ortaya qoyur. Müəllif xanlıqlar dövrünün Azərbaycan tarixindəki rolunu, xanların yol verdikləri səhvləri təhlil edərək, dövrün obyektiv siyasi mənzərəsini canlandırır. Akademik Ramiz Mehdiyevin fikrincə, tarixçilərimiz, filosoflarımız, ədəbiyyatşünaslarımız, mədəniyyətşünaslarımız onu da unutmamalıdırlar ki, keçmişin irsindən qorxmağa, yaxud ehtiyatlanmağa lüzum yoxdur: "Onu olduğu kimi qəbul edib öyrənmək, müsbət tərəflərini və qüsurlarını obyektiv şəkildə göstərmək və ədalətli qiymətləndirmə əsasında ictimaiyyətə ötürmək lazımdır. Tarixi mirasla işləyərkən, əslində, tamam başqa bir məsələdən - hansısa siyasi-ideoloji səbəblərdən, yaxud təəssübkeşlik ucbatından ört-basdır etməyə çalışdığımız və ya mahiyyətini təhrif edərək çatdırdığımız faktların sonradan aşkara çıxarıldığı zaman xalqda, cəmiyyətdə yaradacağı məyusluqdan, ruh düşkünlüyündən və psixoloji sarsıntıdan ehtiyatlanmaq lazımdır!"




Eldar Əmirov bildirib ki, kitabda xanlıqlar dövrünə dair hadisə və şəxsiyyətlərin geniş kütləyə çatdırılmasında ədəbiyyatın və kinonun rolu xüsusilə vurğulanıb. Belə ki, oxunaqlı dildə qələmə alınmış ədəbi əsərlər sırf elmi tədqiqatlarla müqayisədə daha böyük insan kütləsinə xitab etmək iqtidarında olur. Yüksək ədəbi nümunələr emosional təsirə malik olduğu üçün peşəsindən asılı olmayaraq, yazıb-oxumağı bacaran hər bir insanda maraq doğurur. Ona görə də ədəbiyyatın təsir imkanlarından və yayılma miqyasından milli şüurumuzun formalaşdırılması, tarixi yaddaşımızın sağlamlaşdırılması naminə mütləq istifadə edilməlidir. Tariximizin ən zəruri hadisələrinə və görkəmli şəxsiyyətlərinə dair qələmə alınan dəyərli əsərlər, öz növbəsində, ekranlaşdırılaraq həmişəlik insanların şüuruna və yaddaşına həkk edilməlidir.

Qeyd edilib ki, daha əvvəl Nadir şah Əfşar, yeni kitabında isə Ağa Məhəmməd şah Qacar şəxsiyyətinə sənədlər işığında nəzər salan akademik Ramiz Mehdiyev onların və ümumən türksoylu Əfşarlar və Qacarlar sülalələrinin xalqımızın taleyində oynadığı rola aydınlıq gətirir və Ağa Məhəmməd şah Qacarı "Qacarlar dövlətinin banisi, görkəmli dövlət xadimi və sərkərdə" kimi təqdim edir.

Tədbirdə ADU-nun Azərbaycan ədəbiyyatı kafedrasının müdiri, AMEA-nın Folklor İnstitutunun direktoru akademik Muxtar İmanov, ADU-nun sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru, dosent Tamam Cəfərova, azərbaycanşünaslıq elmi-tədqiqat laboratoriyasının aparıcı elmi işçisi, professor Solmaz Rüstəmova-Tohidi, həmin laboratoriyanın baş elmi işçisi, professor Niyazi Mehdi, elmi işlər üzrə prorektor, dosent Sevinc Zeynalova çıxış ediblər.

Çıxışlarda nəşrin konseptual mövqeyi, tarixi və ideoloji yanaşmaları, xanlıqların İran, Rusiya və bir-biri ilə münasibətləri məsələlərinə toxunulub. Bildirilib ki, kitab tarixçilər və mütəxəssislər, həmçinin tarixlə maraqlanan şəxslər üçün dəyərli tədqiqat əsəri, metodik nöqteyi-nəzərdən istiqamətləndirici vəsaitdir. Kitabın istinad mənbələri haqqında danışan mütəxəssislər əsərin Azərbaycan elminə dəyərli töhfə olduğunu deyiblər.

Kitabda təqdim edilən sənədlər arasında Qacar şahlarının Azərbaycan xanlarına ünvanladıqları məktublar, həmçinin xanların o dövrdə Rusiya komandanlığı ilə yazışmaları xüsusilə böyük tarixi əhəmiyyətə malikdir. Həmin sənədlər Azərbaycan xanlarında mərkəzdənqaçma meylinin nə qədər güclü olduğunu açıq-aşkar göstərən inkaredilməz sübutdur. Topluda əksini tapmış materiallar xanlıqlar dövrünə aid bir çox yanlış yanaşma və şərhləri aradan qaldırmağa imkan verəcək, eyni zamanda, Azərbaycan tarixşünaslığında, ictimai fikrində məsələyə münasibətdə daha sistemli və obyektiv baxışın formalaşmasına kömək edəcək.

Çıxışlarda "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabının tarixçilər, mənbəşünaslar, ədəbiyyatşünaslar üçün bir yol xəritəsi olduğu vurğulanıb. Bu kitabı ADU-da fənn proqramlarına, təqvim planlarına bir mötəbər mənbə kimi daxil etmək təklifi irəli sürülüb. Əsərin Azərbaycan elminə və təhsilinə dəyərli töhfə olduğu bildirilib, alimlərimizin, tədqiqatçılarımızın, tələbələrin stolüstü kitabına çevriləcəyinə əminlik ifadə edilib.

# İLHAM ƏLİYEV Pekindən açıqladı:

## "Azərbaycan qitələri birləşdirən ən etibarlı tranzit mərkəzidir"

*Əvvəli 1-ci səh.*

Bu gün isə göründüyü kimi, dünyanın inkişafında yeni mərhələ kimi dəyərləndirilən bu təşəbbüsün tərəfdarları getdikcə artır. Açılış mərasimində Si Cinpinin söylədiyi kimi, dünya iqtisadiyyatındakı mövcud problemlərin həllində və dinamik inkişafında böyük rol oynayan layihə həm də ölkələr arasında ikitərəfli, üçtərəfli və çoxtərəfli əməkdaşlığı da əhatə edir. İqtisadi, ticari, maliyyə və digər sahələrdə xüsusi əhəmiyyəti ilə seçilən bu təşəbbüs qədim İpək yolu üzərində yeni dəyərlərin formalaşmasına da dəstək olur. Bu layihə, həmçinin beynəlxalq səviyyədə yüklərin daşınmasına və beləliklə də milli gəlirlərin artmasına, regional inkişafa ciddi təkan verir.

Forumun "Daha parlaq birgə gələcəyin qurulması" mövzusuna həsr olunan hissəsində çıxış edən Prezident İlham Əliyev həm layihənin əhəmiyyətini dəyərləndirdi, həm də Azərbaycanın mövqeyini bir daha bəyan etdi.

Dövlət başçısı hesab edir ki, Çinin "Bir kəmər, bir yol" təşəbbüsü ölkələr və regionlar arasında iqtisadi əməkdaşlığı inkişaf etdirə, sabitlik və təhlükəsizliyin bərqərar olmasına mühüm töhfə verə bilər. Bu layihə həm də mədəniyyətlərarası və sivilizasiyalararası münasibətlərin, iqtisadi inkişafın gücləndirilməsi, ölkələrin çiçəklənməsi və xalqlararası təmasların təşviqi kimi nəcib ideyalara xidmət edir.

Layihə yalnız nəqliyyat bağlılığını təmin etmir, həmçinin müxtəlif ölkələr arasında əlaqələri gücləndirir, dialoq və əməkdaşlığın möhkəmləndirilməsi işinə xidmət edir. Həmçinin beynəlxalq ticarət üçün yeni imkanlar yaradır.

Ümumiyyətlə, beynəlxalq nəqliyyat layihələri ölkələr və xalqlar arasında əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edir. "Bir kəmər, bir yol" təşəbbüsü isə nəqliyyat sahəsində yeni imkanlar açmaqla yanaşı, ticarəti, turizmi, xalqlar arasında təmasları təşviq edir və Avrasiya məkanında sabitliyin, təhlükəsizliyin və sülhün bərqərar olması işinə xidmət göstərir.

Bu gün regionda müasir nəqliyyat infrastrukturunun yaradılması Azərbaycanın prioritetləri sırasındadır. Prezidentin söylədiyi kimi, Azərbaycan öz coğrafi mövqeyindən bəhrələnərək Asiya ilə Avropa arasında körpülərin qurulmasına investisiya yatırıb. Məhz bunun sayəsində açıq dənizə çıxışı olmayan bir ölkə beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevrilib. Qonşu ölkələri birləşdirən şaxələnmiş dəmir yolu şəbəkəsinin yaradılması da bunu bir daha təsdiqləyir.

Azərbaycanın Cənubi Qafqaz regionunda reallaşdırdığı və iştirakçısı olduğu layihələrin əhəmiyyətindən söz açarkən İlham Əliyev dedi ki, bu layihələr Azərbaycanı təkcə nəqliyyat mərkəzinə çevirməyib, həm də müxtəlif ölkələrin əməkdaşlığı üçün real zəmin yaradıb. Yəni Azərbaycan Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizləri layihələrində iştirak edən ölkələr arasında əməkdaşlığa töhfə verib.

Dövlət başçısı ötən il Bakıda açılış mərasimi keçirilən, dəyəri 40 milyard dollarlıq "Cənub qaz dəhlizi" layihəsi barədə də ətraflı məlumat verdi. Bu gün Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərində yerləşən ölkələr öz mallarını nəql etmək üçün Azərbaycanın ərazisindən istifadə edirlər. Buna görə də müasir infrastrukturun yaradılmasına Azərbaycanın yatırdığı investisiyalar yalnız iqtisadi potensialın artırılmasına və dost, tərəfdaş ölkələrə, qonşulara xidmət göstərməyə kömək etmir, bu, həm də ticarət, turizm, nəqliyyat sahələrində nadir imkanlar yaradır və xalqları, dövlətləri birləşdirir. Ölkələr bir-birinə bağlanır və bu, sülh, sabitlik amalına xidmət edir. Bu da Azərbaycanın müasir nəqliyyat infrastrukturuna malik vacib tranzit ölkəsinə çevrildiyini təsdiqləyən daha bir reallıqdır.

Bakı-Tbilisi-Qars dəmir yolunun imkanlarını da dəyərləndirən İlham Əliyev vurğuladı ki, ötən il istifadəyə verilən Lapis-Lazuli marşrutu "dəmir ipək yolu" xəttinə birləşərək Azərbaycanın tranzit potensialını daha da artırıb. Bakı-Tbilisi-Qars dəmir yolu xətti təkcə 3 ölkəni birləşdirən regional layihə deyil. O, eyni zamanda, qitələri birləşdirir, Asiya və Avropa arasında vacib bağlantıdır. Bu dəmir yolu "Şərq-Qərb nəqliyyat dəhlizi"nin mühüm hissəsidir.

Bunun səbəbidir ki, bu gün Azərbaycan sayı artmaqda olan ölkələr üçün tranzit imkanlarını təmin edir. Ötən il 15 milyon ton yük və 100 min konteyner yükaşırma qabiliyyətinə malik Bakı Beynəlxalq Dəniz Ticarəti Limanının istifadəyə verilməsi də bu prosesin tərkib hissəsidir.

Prezident hər zaman olduğu kimi, Azərbaycanın son 15 ildə qazandığı nailiyyətləri və bir nömrəli problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri bu dəfə Pekindən dünyaya bəyan etdi.

Müharibə şəraitində yaşayan bir ölkə həqiqətən də bu illər ərzində böyük uğurlar qazanıb. Bunu iqtisadiyyata yatırılan sərmayə də təsdiqləyir. İqtisadiyyata yatırılan 260 milyard dollar həcmində sərmayə Azərbaycana böyük layihələrin gerçəkləşdirməsinə real imkanlar yaradıb. Bu uğurlar Azərbaycanın xarici borclarını da azaldıb. Bu rəqəm hazırda ümumi daxili məhsulun təxminən 19 faizini təşkil edir.

Nəzərə alsaq ki, ölkənin 46 milyard dollarlıq valyuta ehtiyatları var, onda aydın olur ki, ehtiyat xarici borcdan beş dəfə çoxdur. Azərbaycanın builki iqtisadi göstəriciləri iqtisadiyyatda artımın olduğunu nümayiş etdirir. Ümumi daxili məhsul 3 faiz artıb, inflyasiyanın səviyyəsi 2,1 faizdir və iqtisadiyyatın şaxələndirilməsi əsas məqsədlərdən biridir.

Azərbaycanda son 15 ildə 15 min kilometr yol və avtomagistrallar çəkilib. Bugünədək 6 beynəlxalq hava limanı tikilərək istifadəyə verilib. Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan yolların keyfiyyəti baxımından dünyada 34-cü yerdədir.

İnfrastrukturun inkişafına, həmçinin çox əlverişli biznes mühitinin yaradılması ilə dəstək verilir. Bu gün Azərbaycandakı biznes mühiti dünyada olan ən qabaqcıl biznes mühitlərindən biridir. İndi Azərbaycan dünyada ən çox islahat aparan on ölkə sırasındadır.

Prezident hər zamankı kimi Azərbaycan həqiqətlərini diqqətə çatdırdı və dünyaya bəyan etdi ki, regionda sabitliyin təminatı üçün Dağlıq Qarabağ münaqişəsinin həlli mütləqdir. Bütün hallarda isə Azərbaycan insanlar və xalqlar arasında körpülərin qurulmasında öz rolunu oynamağa davam edəcək. Şərqdən Qərbə və Şimaldan Cənuba uzanan yolun üzərində olan Azərbaycan qitələri ölkələri birləşdirərək, daha uğurlu gələcəyə doğru inamla addımlayır.

Prezident İlham Əliyev forumun "Qarşılıqlı siyasətin gücləndirilməsi və daha yaxın tərəfdaşlığın qurulması" mövzusuna həsr olunan ikinci və "BMT-nin 2030-cu il Gündəliyini həyata keçirmək üçün yaşıl və dayanıqlı inkişafın təşviqi" mövzusuna həsr olunan üçüncü sessiyasında da iştirak etdi. İkinci sessiyada çıxış edən Prezident Azərbaycan və Çinin tərəfdaş ölkələr olduğunu bir daha bəyan etdi. Prezident İlham Əliyev bu sessiyada da Azərbaycanın son illərdə həyata keçirdiyi beynəlxalq əhəmiyyətli layihələrdən, enerji ixracatçısı kimi imkanlarının hər keçən gün genişlənməsindən söz açaraq dedi ki, ölkəmizdə həm də möhkəm infrastruktur bazası yaradılıb. Bu isə Azərbaycanın tərəfdaşlarının maraqlarına xidmət edir: "Azərbaycan, həmçinin enerji ixrac edən ölkədir. Enerji ixracı bizim inkişafımız üçün əsaslı baza və təməl yaratmışdır. Biz enerji resurslarımızdan xalqımızın mənafeyi naminə istifadə etmişik, edirik və davamlı inkişafa nail olmuşuq. Hazırda iqtisadiyyatın şaxələndirilməsi əsas vəzifələrdən biridir".

Azərbaycanın Xəzər dənizində 260 gəmi ilə ən böyük ticarət donanmasına malik ölkə olduğunu xatırladan dövlət başçısı ölkəmizin nəqliyyat sahəsində potensialının getdikcə daha da artdığını və bunun da beynəlxalq əməkdaşlıq üçün yaxşı imkanlar yaratdığını söylədi.

Prezident "Bir kəmər, bir yol" layihəsini təkcə nəqliyyat layihəsi deyil, sülhə, təhlükəsizliyə və əməkdaşlığa xidmət edən təşəbbüs adlandırdı.

Bir sözlə, Pekin səfəri çərçivəsində Prezident İlham Əliyevin forumda iştirakı, eləcə də dövlət və hökumət başçıları, tanınmış şirkət rəhbərləri ilə keçirdiyi çoxsaylı görüşlər Azərbaycana siyasi-iqtisadi dividendlərin gətirəcəyini deməyə əsas verir. İlham Əliyev foruma qatılması ilə həm də Azərbaycanın bu təşəbbüsə böyük önəm verdiyini və regionda istənilən layihəni dəstəkləməyə hazır olduğunu bəyan etdi.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın hərbi sənaye məhsulları beynəlxalq sərgidə böyük maraqla qarşılanıb

Aprelin 30-da İstanbulda Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə "IDEF-2019" XIV Beynəlxalq Müdafiə Sənayesi Sərgisi açılıb.

AZƏRTAC xəbər verir ki, 70 ölkədən 1061 şirkət və 500-dən çox rəsmi nümayəndə heyətinin qatıldığı sərginin açılışında Azərbaycanın müdafiə sənayesi nazirinin müavini Yəhya Musayev də iştirak edib.

"IDEF-2019" sərgisində milli pavilyonla təmsil olunan Müdafiə Sənayesi Nazirliyinin nümayiş etdirdiyi məmulatlar - snayper tüfəngləri, avtomatlar, hücum pulemyotları, qumbaraatanlar, minaatanlar, pirotexniki vasitələr, optik sistemlər, döyüş maşınları, pilotsuz uçuş aparatları, müxtəlif çaplı döyüş sursatları və digər hərbi təyinatlı məhsullar tədbirin birinci günündə ziyarətçilər tərəfindən böyük maraqla qarşılanıb.

Tədbirə qatılan Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov və digər güc qurumlarının nümayəndələri MSN-in stendində nümayiş etdirilən məmulatlarla tanış olublar.

Sərgi çərçivəsində nazir müavini Yəhya Musayevin dost və müttəfiq ölkələrin rəsmi nümayəndə heyətləri, habelə bu sektorda fəaliyyət göstərən aparıcı firmaların nümayəndələri ilə görüşləri təşkil olunacaq.

# Xeyirxahlıq missiyası

*Əvvəli 1-ci səh.*

Məhz bu kimi xeyirxahlığı, humanizmi əməli fəaliyyətində göstərdiyi üçün Mehriban xanım Əliyeva II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordeni ilə təltif edilib.

Bu gün də Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva özünün humanizm siyasəti ilə fəaliyyətini davam etdirir və ölkənin ən həssas təbəqəsi sayılan, sosial problemlərlə baş-başa qalan məcburi köçkünlərin yanında, onların qayğılarını çəkməkdə, problemlərinin həllinə dəstək olmaqdadır.

Aprelin 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Bakı şəhərində, Azərbaycan Tibb Universitetinin 4 saylı yataqxanasında və Qaradağ rayonunda salınan "Qobu Park" yaşayış kompleksində məskunlaşmış məcburi köçkünlərlə görüşündə də bütün bu xeyirxahlıq missiyası özünü təsdiqlədi.

Xatırladaq ki, 1993-cü ildən işğal altında olan rayonlardan məcburi köçkünlərin məskunlaşdığı 4 saylı yataqxanada 150-dən çox ailə yaşayır. Onlar dövlətin göstərdiyi diqqət və qayğını yüksək dəyərləndirir, bu dəstəyi hər zaman hiss etdiklərini söylədilər.

Mehriban xanım Əliyeva illərdir yataqxana həyatı keçirən məcburi köçkün ailələrə baş çəkərkən bir daha həssaslıq göstərərək onlara bundan sonra da diqqət və qayğı ilə yanaşılacağını, tezliklə mənzil şəraiti ilə təmin olunacaqlarını bildirdi: "Mən bilirəm ki, siz yararsız binalarda çətin vəziyyətdə yaşayırsınız. İnanın mənə, tapşırığımla yeni yol xəritəsi hazırlanır. Prezident İlham Əliyevin diqqətində olan ən vacib məsələ məcburi köçkünlərin və qaçqınların yaşayış şəraitinin yaxşılaşdırılmasıdır və bu günə qədər çox böyük işlər görülüb, 300 mindən artıq insan evlə təmin olunub və təmin olunacaq. Əgər 2017-2018-ci illərdə 6126 mənzil təhvil verilibsə, bu il təkcə 1 il ərzində 6 min mənzil təhvil veriləcək. İnanın, mənim güc mənbəyim sizsiniz. Mən hər zaman sizin yanınızdayam. Bu, mənim borcumdur".

Birinci vitse-prezident yataqxananın yerləşdiyi ərazidə Zəngilan rayon 20 saylı orta məktəbdə də oldu. Mehriban xanım 131 şagirdin təhsil aldığı məktəbdə müəllimlərlə görüşdü. Ölkəmizin birinci xanımı o gün Qaradağ rayonunda məcburi köçkünlər üçün salınan "Qobu Park" yaşayış kompleksinə də gəlib qəsəbə sakinlərinin vəziyyəti ilə maraqlandı, müraciətlərini dinlədi və onların həlli istiqamətində tapşırıqlarını verdi.

Xatırlatdı ki, məcburi köçkünlərin mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən mühüm tədbirlərdən biri 103 yeni qəsəbə və şəhərciyin salınmasıdır. Burada da ümumilikdə 1026 məcburi köçkün ailəsi mənzillə təmin olunub: "...Şəhərcik təkcə evlərdən ibarət deyil, onu yaratmaq üçün infrastruktur - məktəblər, bağçalar tikilib, su, qaz, işıq xətləri çəkilib, asfalt yollar salınıb. Amma hələ ki, ağır vəziyyətdə yaşayan insanlarımız var və onların həyatının yaxşılaşdırılması üçün əlimizdən gələni edəcəyik. İnşallah, Qarabağ problemi də öz həllini gərək sülh yolu ilə, beynəlxalq hüququn norma və prinsipləri əsasında tapsın, soydaşlarımız doğma torpaqlarına qayıtsın. Hələ ki, bütün soydaşlarımızı normal yaşayış şəraiti ilə, işlə təmin etmək Azərbaycan dövlətinin ən əsas vəzifəsidir. İnanın ki, bu sahədə bütün lazımlı işlər, addımlar atılır... Gözəl, yaxşı, müsbət dinamika var".

Azərbaycanın Birinci vitse-prezidenti xüsusi olaraq vurğuladı ki, onun fəaliyyətində ən vacib, ən mühüm güc mənbəyi xüsusən məcburi köçkünlərlə ünsiyyətdə olmaqdır: "...Mən sizin sevginizi, dəstəyinizi hiss edəndə daha inamlı oluram. Mənim üçün böyük şərəfdir ki, insanlar mənə dəstək verir, məni sevir, mənə inanır. Sizi əmin etmək istəyirəm ki, mən sizin etimadınızı doğruldacağam".

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanımın xoşməramlı fəaliyyətində mühüm yerlərdən birini də torpaqlarımız uğrunda canından keçən əsgər və zabitlərimizin şərəfini daim uca tutması, onların ailəsinin dövlət qayğısı ilə hərtərəfli əhatə olunmasıdır. Bu yolda sağlamlığını itirmiş vətən oğulları da diqqətdən kənarda qalmayıb. Üç il bundan əvvəl Heydər Əliyev Fondu "2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsinə başlayıb. Artıq bu layihənin ikinci mərhələsi yekunlaşıb. Ötən 3 il ərzində 100-dən çox zabit və əsgər yüksək texnologiyalı protezlərlə təmin olunub.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva bu günlərdə yüksək texnologiyalı protezlərlə təmin olunan hərbçilərlə görüşərək, onlarla səmimi söhbət etdi.

Söhbət zamanı Birinci vitse-prezident vətənpərvər övladlarımızın qəhrəmanlığını, şücaətini yüksək dəyərləndirdiyini, hər zaman onlara dəstək olacağını vurğuladı: "Siz hər bir insan üçün çox dəyərli olan sağlamlığınızı Vətən, torpaq yolunda qurban vermisiniz. Siz güllələr, bomba altında Azərbaycan uğrunda, torpağımız, Vətənimiz uğrunda həyatınızı qurban verməyə hazır olmusunuz. Mən fəxr edirəm ki, Azərbaycanın belə oğulları var, mənim belə qardaşlarım var".

Mehriban xanım Əliyeva hələ Azərbaycanın Birinci vitse-prezidenti təyin olunmazdan illər öncə də xeyirxahlıq missiyası ilə insanlarda özünə dərin rəğbət qazanıb. Həmin insanların sosial mənşəyi, siyasi baxışları və dünyagörüşləri də fərqli, rəngarəng olub. Onların arasında yurdu təcavüzkar Ermənistan tərəfindən darmadağın edilmiş bir milyondan artıq qaçqın və məcburi köçkünün olması da təbiidir. Axı, bu insanlar daha çox sosial yardıma, mənəvi dəstəyə ehtiyacı olanlardır.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# DSX: Sərhəd döyüş məntəqələri Ermənistan ordusunun bölmələri tərəfindən iriçaplı silahlardan intensiv atəşə tutulub

Aprelin 29-30-da Qazax rayonu istiqamətində Ermənistanla dövlət sərhədində Dövlət Sərhəd Xidmətinin (DSX) sərhəd döyüş məntəqələri günün müxtəlif vaxtlarında Ermənistanın silahlı qüvvələrinin bölmələri tərəfindən bir neçə istiqamətdən iriçaplı silahlardan dəfələrlə intensiv atəşə tutulub. Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, bölmələrimizin atəşə tutulduğu Ermənistan silahlı qüvvələrinin döyüş mövqeləri istiqamətində cavab atəşi açılıb.

# Vəzifələri kosmik yüksəkliyə qaldırarkən

Moskvada nəşr olunan "İnjenernaya qazeta"nın aprel nömrəsində Azərbaycan Mühəndislik Akademiyasının prezidenti, Beynəlxalq Mühəndislik Akademiyasının vitse-prezidenti, akademik Arif Paşayevin "Vəzifələri kosmik yüksəkliyə qaldırarkən" sərlövhəli məqaləsi dərc edilib. AZƏRTAC məqaləni təqdim edir.


ИНДУСТРИЯ 2019 АПРЕЛЬ № 4

инженерная газета

ОТВЕЧАЯ НА ВЫЗОВЫ ВРЕМЕНИ

Международная и Российская инженерные академии

Общее собрание

Azərbaycan iqtisadiyyatın şaxələndirilməsi yolunu seçib və qeyri-neft seqmentinin möhkəmləndirilməsi ölkəmiz üçün prioritet olub. Azərbaycan Mühəndislik Akademiyası bunu nəzərə alaraq bütün qüvvələrini qeyri-neft sənayesinin inkişafına, aqrar sektorun sənayeləşməsinə və dirçəldilməsinə yönəldib. Akademiya ölkənin davamlı inkişafı strategiyasının işlənib hazırlanmasına və təkmilləşdirilməsinə xüsusi diqqət yetirir.

Məlum olduğu kimi, Azərbaycan Respublikasında **kosmik sənayenin** yaradılması və inkişafı üzrə Dövlət Proqramı həyata keçirilir. Telekommunikasiya peyki orbitə çıxarılıb, hazırda bu peykin köməyi ilə 154-dən çox telekanalın və 30 radiostansiyanın verilişləri yayımlanır.

2018-ci ilin sentyabr ayında Azərbaycan Fransanın "Arianespace" şirkəti ilə birlikdə növbəti "Azerspace-2" peykini orbitə çıxarıb. Bu peyk artıq orbitdə olan "Azerspace-1" peykinin əhatə dairəsini genişləndirməklə bərabər, onun üçün ehtiyat rolu yerinə yetirir, bu da əhaliyə daha etibarlı xidmətlər göstərməyə imkan verir. Bu peykin xidmət zonasına Avropa, Mərkəzi və Cənubi Asiya, Yaxın Şərq və Afrika ölkələri daxildir. Mühəndislik Akademiyası bu proqramın həyata keçirilməsində fəal iştirak edir və kosmos üzrə şuraya rəhbərlik edir.

Neftlə çirklənmə parametrlərinin qiymətləndirilməsi üçün yüksək ayırdetmə qabiliyyətli "RADARSAT-2" kosmik radiolokasiya sistemindən istifadə edilməsi əsasında Xəzər dənizinin Azərbaycan sektoru akvatoriyasında neft sızmaları parametrlərinin aşkar edilməsi üzrə işlər davam etdirilir.

Akademiyanın Rəyasət Heyətinin qərarı ilə Milli Aviasiya Akademiyası bazasında müasir avadanlıq, cihazlar və alətlərlə təchiz olunmuş texnopark yaradılıb, bu texnopark tələbələrin və magistrlərin sərəncamına verilib.

2018-ci ildə **energetika sahəsində** tarixi hadisələr baş verib. Belə hadisələrdən biri "Azəri-Çıraq-Günəşli" yatağına dair kontraktın müddətinin 2050-ci ilə qədər uzadılmasıdır. Azərbaycan Dövlət Neft Şirkəti - SOCAR digər tərəfdaşları ilə birlikdə bu layihədə operator qismində iştirak edir. Layihədə Azərbaycan Mühəndislik Akademiyasının üzvləri də fəal iştirak edirlər. Bu layihə neft hasilatını hələ uzun illər ərzində sabit səviyyədə saxlamağa imkan verəcək. "Cənub qaz dəhlizi"nin, habelə TANAP və TAP qlobal layihələrinin həyata keçirilməsi uğurla davam edir.

Marşrutların şaxələndirilməsi və Böyük İpək yolu üzərində yerləşən ölkələrlə iqtisadi əlaqələrin genişlənməsi baxımından nəqliyyat müstəqilliyini, o cümlədən Avropa qitəsinin müstəqilliyini təmin edən daha bir genişmiqyaslı transregional layihə Bakı-Tbilisi-Qars dəmir yoludur. Bu layihə bizə ən yaxın qonşu ölkələr arasında münasibətləri dərinləşdirməyə və möhkəmlətməyə kömək edəcək. Bu layihənin sayəsində biz bir sıra problemləri həll edə biləcəyik. Məsələn, Avropaya qatarla getmək mümkün olacaq, iki günə İstanbula çata biləcəyik. Bu layihə həyata keçiriləndən sonra Pekindən Londona 12 günə çatmaq imkanı yaranacaq. Mühəndislik Akademiyası üzvlərinin də iştirak edəcəyi bu tarixi layihənin reallaşdırılması Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevirəcək. Bizim akademiyanın üzvləri "Şimal-Cənub nəqliyyat dəhlizi"nin reallaşması sahəsində də mühüm addımlar atırlar. Bu layihə İran sərhədinə qədər dəmir yolunun tikintisini təmin edəcək.

Son bir neçə ildə Azərbaycan hökuməti ölkədə sürət qatarları konsepsiyasını fəal şəkildə reallaşdırır. Sovet dövründən miras qalmış dəmir yolu infrastrukturu artıq dövrümüzün tələblərinə cavab vermir və onun əsaslı şəkildə modernləşdirilməsinə ehtiyac var. Sürətli marşrutun istifadəyə verilməsi nəticəsində artıq Bakı ilə Sumqayıt arasında əsas avtomobil magistralında avtomobillərin axını, yollarda tıxacların sayı azalıb. Nisbətən qısa müddət ərzində elektrik qatarından istifadə edən sərnişinlərin sayı iki milyonu aşıb. Hər gün 6 mindən çox insan bu elektrik qatarından istifadə edir, bu isə o deməkdir ki, insanlar layiqli alternativin üstünlüyünü və rahatlığını düzgün qiymətləndiriblər.

Qəbələ son illərdə Azərbaycanın inkişaf etmiş turizm mərkəzinə çevrilib. Bu istiqamətdə turist axını istər qışda, istərsə də yayda azalmır. 2019-cu ilin sonunda Bakının mərkəzindən Qəbələ aeroportuna qədər dəmir yolu istifadəyə veriləndən sonra bu məsafəni 2,5 saata qət etmək mümkün olacaq. Bu marşrut üzrə hərəkət edəcək, 367 sərnişin tutumu olan ikimərtəbəli "Ştadler" dəmir yolu ekspreslərinin sürəti saatda 120-140 kilometrə çatacaq. "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti Bakı-Gəncə sürətli dəmir yolu marşrutu yaradır. Bu layihəni 2019-cu ilin sonuna qədər tamamlamaq planlaşdırılır. Bütün bunlar logistika məsələsinin həllini aktuallaşdırıb. Bu istiqamətə turistlərlə yanaşı, yerli sakinlər də üstünlük verir. Bütün bu layihələrin reallaşdırılmasında Azərbaycan Mühəndislik Akademiyasının üzvləri çox fəal iştirak edirlər.

Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinin birinci mərhələsi çərçivəsində Hollandiyanın "Royal Haskoning" şirkəti ilə birlikdə bərə terminalı da açılıb. Bizim akademiyanın üzvləri bu layihədə də iştirak ediblər. Limanın yükaşırma həcminin ildə 25 milyon ton yükə və 1 milyon konteynerə bərabər olması nəzərdə tutulur. Layihəyə əsasən, limanda logistika mərkəzinin yaradılması da böyük əhəmiyyət kəsb edir. Bu mərkəz Azərbaycanın Qərb ilə Şərq arasında yükaşırma məntəqəsinə çevrilməsinə imkan verəcək.

**Sənaye innovasiya texnologiyalarının tətbiq edilməsi sahəsində** akademiyada ayrı-ayrı birlik və müəssisələrin sifarişi ilə praktika üçün əhəmiyyətli məsələlər yerinə yetirilir. Məsələn, "Aqreqat" İstehsal Birliyinin sifarişi ilə gücü 2000 vatta qədər olan aviasiya qızdırıcıları üçün termostabilizasiya və qəza ayırma qurğusu yaradılıb. Azərbaycan Mühəndislik Akademiyası çərçivəsində "İqlim" Elm-İstehsal Müəssisəsinin sifarişi ilə çoxdamarlı sıxacların avtomatik yoxlanması və elektromontaj sınaqları üçün daha mükəmməl qurğunun yaradılması başa çatdırılıb.

Suyun ilkin tərkibi mürəkkəb və çox çirkli olduğu yaşayış məntəqələri üçün içməli suyun təmizlənməsi üzrə modul qurğusunun yeni avtomatik idarəetmə blokunun yaradılması da davam etdirilir. Bu qurğu modulun işini məsafədən simsiz müşahidə və idarə etməyə imkan verəcək.

Akademiyanın alim və mühəndisləri **neft-kimya texnologiyaları sahəsində** neft-qaz mədənlərinin tərkibində kükürd-hidrat və karbon qazı olan lay sularında metalın qorunması üçün korroziya ingibitorları yaradıblar. Bu ingibitorların yaradılması zamanı neft-kimya sintezi üçün xammal mənbələri qismində təbii və sintetik üzvi turşulardan istifadə edilib.

Akademiyada ozonlaşdırma texnologiyası və xüsusi təyinatlı müvafiq avadanlıq yaradılıb. Bu avadanlıqdan aviasiyada, təbabətdə, kənd təsərrüfatında və ölkə iqtisadiyyatının digər sahələrində istifadə edilir.

Aqrosənaye sektorunda ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə **kənd təsərrüfatının inkişafı sahəsində** quraqlığa davamlı kənd təsərrüfatı bitkilərinin yetişdirilməsi, düzənlik və dağətəyi quraqlıq zonalarda və Azərbaycan Respublikasının eniş-yoxuşlu torpaqlarında eroziyaya qarşı mübarizə və sudan istifadə proqramlarını xüsusi qeyd etmək lazımdır. Azərbaycan bu istiqamətdə Rusiya Federasiyası ilə birlikdə kənd təsərrüfatının inkişafına dair dövlətlərarası proqram hazırlayır. Bizim akademiya N.İ.Vavilovun genetik resurslara aid elmi irsinin inkişaf etdirilməsi üzrə birgə iş aparır.

Toxumların səpin keyfiyyətini yüksəltmək məqsədilə biz morfoloji göstərici əsasında ozonlu mühitdə kənd təsərrüfatı bitkiləri toxumlarının səpinqabağı stimullaşdırılmasının səmərəli dozasını müəyyən etmək metodunu təklif etmişik və toxumun sortundan asılı olaraq avtomatik idarə edilən doza hesablayan qurğunun eksperimental nümunəsini yaratmışıq.

2018-ci ilin iyun ayında Bakıda Dünya Əqli Mülkiyyət Təşkilatı və Avrasiya Patent Təşkilatı tərəfindən "Əqli mülkiyyətin innovasiyalı iqtisadiyyata töhfəsi" mövzusunda beynəlxalq konfrans keçirilib. Bizim akademiyanın həmin konfransa təqdim etdiyi işlər müsbət qiymətləndirilib.

**Beynəlxalq əməkdaşlıq sahəsində** bizim akademiya bir sıra milli və beynəlxalq akademiyalar və mühəndis cəmiyyətləri ilə əlaqələri və səmərəli əməkdaşlığı nizamlamağa səy göstərir. Azərbaycan Mühəndislik Akademiyası Beynəlxalq Mühəndislik Akademiyası ilə birlikdə Sloveniya, Belarus, Gürcüstan və Qırğızıstanın mühəndis akademiyaları ilə üçtərəfli müqavilələr imzalayıb.

İslam Ölkələri Mühəndislik İnstitutları Federasiyasının (İÖMİF) tərkib hissəsi kimi biz Azərbaycan Mühəndislik Akademiyası ilə İÖMİF və onun üzvləri arasında əməkdaşlığı genişləndiririk.

Bizim akademiyanın üzvləri il ərzində 4 konfrans, çoxsaylı dəyirmi masalar, seminarlar və ustad dərsləri təşkil edib, bir sıra konqreslərdə, beynəlxalq və regional elmi forumlarda, simpozium və konfranslarda iştirak ediblər.

Üzərində iş gedən bütün layihələrə ölkənin aparıcı elmi potensialı, o cümlədən Milli Elmlər Akademiyası, aparıcı ali məktəblər və onların intellektual-innovasiyalı klasteri, Azərbaycan Mühəndislik Akademiyasının da aid olduğu elmi mərkəzlər və təşkilatlar cəlb edilir.

Bizim mühəndislər birliyinin fikrincə, təhsildə əsas resurs məhz istedadlı və hazırlıqlı insanlar olmalıdır.

Milli Aviasiya Akademiyasında hər il aviakosmik problemlərin həllində gənclərin kreativ potensialının üzə çıxarılmasına və inkişaf etdirilməsinə həsr olunmuş "Fevral mütaliələri" keçirilir. Bu mütaliələrin təşkilatçıları Təhsil Nazirliyi, "Azərbaycan Hava Yolları" QSC (AZAL), Milli Aviasiya Akademiyası, Azərbaycan Mühəndislik Akademiyası və "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətidir. "Fevral mütaliələri-2018" çərçivəsində "Aviakosmik problemlərin həllində gənclərin yaradıcı potensialı" mövzusunda III Beynəlxalq elmi-praktiki gənclər konfransı keçirilib. Konfransın işində Rusiya, ABŞ, İngiltərə və Qazaxıstandan gəlmiş xarici qonaqlar iştirak ediblər. Gənclər arasında riyaziyyat və fizika, müasir informasiya-kommunikasiya texnologiyaları sahəsində aparıcı mütəxəssislərin ustad dərsləri, "dəyirmi masa"lar keçirilir.

Ötən il bizim akademiyanın üzvləri onlarca kitab, monoqrafiya, o cümlədən "Aviasiya materialşünaslığı", "Mezomexanika və plastiklik fizikası", "Synergetics and Fractals in Tribology", "Materiallar müqaviməti" adlı kitablar, "Mühəndislik fəlsəfəsi" traktatı və bir sıra başqa əsərlər nəşr ediblər. Ümumilikdə 60-a yaxın elmi məqalə dərc edilib, 5 patent, o cümlədən Avrasiya patenti alınıb. Akademiyanın üzvləri, o cümlədən xarici alimlər mühəndis cəmiyyətinin inkişafına verdikləri böyük töhfəyə görə Mühəndislik Akademiyasının beş qızıl "Mühəndis rəşadəti" medalı ilə təltif ediliblər. Akademiyanın üç üzvü mühəndislik tədqiqatlarının tətbiqinə görə üç nominasiya üzrə akademiyanın "İlin mühəndisi" fəxri adına layiq görülüb, onlara diplom və xatirə medalları təqdim edilib. Akademiya üzvlərinin xidmətləri dövlət, hökumət və ictimai təşkilatlar tərəfindən qeyd edilib: akademiyanın 6 üzvü orden və medallarla təltif edilib, 1 nəfər əməkdar mühəndis, 2 nəfər əməkdar müəllim fəxri adlarına layiq görülüb, 3 nəfərə "İlin mühəndisi" fəxri adının diplomları və xatirə medalları təqdim edilib.

Akademiyanın elmi orqanı - "Azərbaycan Mühəndislik Akademiyasının xəbərləri" adlı beynəlxalq elmi-texniki jurnal 10 il ərzində Azərbaycanın və xarici ölkələrin elmi həyatında fəal iştirak edir. Jurnal bütün dünya alimlərinin araşdırdığı problemlərin vəziyyətinə böyük əhəmiyyət verir. "Azərbaycan Mühəndislik Akademiyasının xəbərləri" jurnalı internet şəbəkəsində inteqrasiya edilmiş elmi resursun hüquqi sahibidir. Buraya Rusiya Elmi Sitatgətirmə İndeksi (RESİ) daxildir. Bu indeksin əmsalı jurnalın reytinqini müəyyən edir.

2018-ci il bir sıra yeni layihələrin iştirakçısı kimi Azərbaycan Mühəndislik Akademiyası üçün səmərəli il, iqtisadi artımın bərpası, iri infrastruktur layihələrinin reallaşdırılması, genişmiqyaslı regional və beynəlxalq sammitlərin keçirilməsi ili olub.

***Arif PAŞAYEV,***
***Azərbaycan Mühəndislik Akademiyasının prezidenti, akademik***

## İsmayıl Şıxlı - 100

İsmayıl Şıxlı Azərbaycan ədəbiyyatı tarixinə böyük həcmli əsərləri ilə bərabər, həm də hekayələri, publisist və tənqidi, ədəbi prosesləri əks etdirən məqalə və çıxışları, dərslik və tərcümələri ilə daxil olan görkəmli yazıçı, alim-pedaqoq, ədəbiyyatşünasdır. O, daim xatırlanan, ən çox oxunan, yerli və xarici oxucuların diqqətini cəlb edən, əsərləri müxtəlif xalqların dilinə tərcümə olunan yazıçılardandır.



# Əbədi ömür

Ədibin həyat yolu çətin, mənalı və unudulmazdır. Bu yol çoxlarına örnək ola biləcək qədər qiymətli və şərəflidir. Pedaqoji İnstitutun filologiya fakültəsini bitirib kənd məktəbində müəllim işləyən İsmayıl Şıxlı çox keçmir ki, İkinci Dünya müharibəsinin dəhşətləri ilə üz-üzə gəlir. Şimali Qafqazda, Krımda, III Belarusiya cəbhəsində, Şərqi Prussiya istiqamətində gedən döyüşlərdə iştirak edir, müharibənin ağırlığını bütün varlığı ilə yaşayır, insanlığa, bəşəriyyətə qənim kəsilən alman vəhşilikləri onun həyatında silinməz izlər qoyur. Sözsüz ki, müharibənin dəhşətləri sonralar bu gənc oğlanın bir vətəndaş, yazıçı kimi formalaşmasına, həyata daha açıq gözlə baxmasına, dövrün, zamanın reallıqlarını qiymətləndirməsinə böyük təsir göstərmiş, onu mətinləşdirmiş, yeni mübarizələrə hazırlamışdır.

Millilik, mübarizlik, qətiyyət, humanizm, vətənpərvərlik İsmayıl Şıxlı şəxsiyyətini və yaradıcılığını səciyyələndirən və yazıçını milyonlarla oxucuya sevdirən başlıca cəhətdir. O, həyatının bütün dövrlərində - cəbhədə, ali məktəb müəllimi olduğu, deputat kimi fəaliyyət göstərdiyi, Yazıçılar İttifaqının katibi, redaktor kimi çalışdığı illərdə, harada olursa-olsun öz xalqının mövqeyindən çıxış etmiş, azərbaycanlı adını uca tutmuş, hər an vicdanının səsinə səs vermişdir.

İsmayıl Şıxlı öz həyatı, fəaliyyəti, yaradıcılığı ilə Azərbaycan xalqının qəlbində silinməz izlər buraxmış, elə bir örnək olmuşdur ki, bu nümunələrdən minlərlə insan bəhrələnmiş, düzgün, mənalı həyata istiqamətlənmişdir. Ümummilli lider Heydər Əliyev yazıçının fəaliyyətinə yüksək qiymət verərək demişdir: "Azərbaycan xalqının böyük bir nəslinin layiqli övlad, əsl vətəndaş və hərtərəfli şəxsiyyət kimi yetişməsində sizin əməyiniz böyükdür. Siz istedadlı yazıçı, müdrik və mahir pedaqoq, mübariz vətəndaş kimi xalqın qəlbində əbədi məskən salmısınız. Belə bir sevgiyə layiq görülmək ən böyük səadətdir".

Ulu öndərin qeyd etdiyi kimi, İsmayıl Şıxlı əsl vətəndaş, milli köklərə söykənən, milli-mənəvi dəyərlərimizi qiymətləndirən, onları ömrü boyu təbliğ edən bir insan, yazıçı idi. Onun şəxsiyyəti ilə yaradıcılığı vəhdət təşkil edir, bir-birini tamamlayır.

Müasir Azərbaycan ədəbiyyatının elə nümayəndələri var ki, onların yaradıcılıqları ilə şəxsiyyəti arasındakı əlaqənin tipologiyasını ya ümumiyyətlə müəyyənləşdirmək çətindir, ya da belə bir əlaqə absurd xarakter daşıyır. Belə ədiblərin əsərləri oxunsa da, təhlil edilsə də, mətn heç bir halda şəxsiyyətə gətirib çıxarmır. Onların əsəri bir, şəxsiyyəti isə bir başqa fikir oyadır. Bütövlük görünmür, əməllə söz uyğun gəlmir.

İsmayıl Şıxlıya münasibətdə isə məsələ tamamilə fərqlidir. Onun zəngin nəsr yaradıcılığı ilə bağlı milli ədəbi-nəzəri fikrimizdə mövcud olan araşdırmalar etnik-milli məsələləri əhatə etməklə, həm də yazıçının şəxsiyyətinə doğru yönəlir, bu böyük insanın mənəvi dünyasına səyahət edir. Çünki İsmayıl Şıxlı əsərlərində özünün, malik olduğu xalqın ruhunu, duyğularını, baxışlarını, əxlaqını, mədəniyyətini əks etdirir, çox zaman qəhrəmanlarının timsalında öz şəklini çəkir, öz obrazını işıqlandırır, qəlbindən keçənləri qələmi ilə ifadə edir. Professor, görkəmli alim Nizami Cəfərovun təbirincə desək: "Azərbaycan ədəbi-mədəni, ictimai-estetik təfəkküründə İsmayıl Şıxlı obrazı yazıçının yaratdığı obrazlardan, əgər belə demək mümkünsə, daha mükəmməl, daha məşhur, daha bədiidir... O, həyatı, fəaliyyəti, yaradıcılığı ilə təkrarsız bir obraz - İsmayıl Şıxlı obrazı, qeyri-adi bir metafora - İsmayıl Şıxlı metaforası yaratdı".

İsmayıl Şıxlı bütün hallarda - pedaqoq, ictimai-siyasi xadim, yazıçı, vətəndaş kimi öz obrazını yaratmağı bacardı. Tələbələri uzun illər keçməsinə baxmayaraq onu mehriban, müdrik, tələbkar bir müəllim kimi xatırlayırlar. Nəinki xatırlayırlar, öz əməlləri, fəaliyyətləri ilə hörmətli müəllimlərinin borcunu qaytarmağa, gənc nəsli milli-mənəvi dəyərlərə, Vətənə, xalqa sədaqət ruhunda tərbiyə etməyə çalışırlar. Onlar harada olduqlarından, hansı vəzifədə işlədiklərindən asılı olmayaraq bir həqiqətə-haqqa, ədalətə, insanlığa, elmə inanır, bu keyfiyyətlərin İsmayıl Şıxlı kimi daşıyıcılarına, yaradıcılarına hörmətlərini ifadə edirlər.

Zaman bəzən insanları dəyişdirir, onlar üçün məqbul olmayan müəyyən xüsusiyyətləri diktəsi ilə edib qəbul etdirir, təmiz ada kölgə salır, ədalətsizliyə yol açır. İsmayıl Şıxlı isə zamanın bütün keşməkeşlərindən, əzab-əziyyətlərindən mətanətlə çıxan, dünyanın malına-dövlətinə uymayan, vəzifə havasında xumarlanmayan, taleyin qismətinə qane olub haqqı başının üstündə görən və ləyaqətini, adını hər şeydən uca tutan bir insan idi.

İsmayıl Şıxlı bir ictimai-siyasi xadim kimi yaddaşlara əbədi həkk olunan vətəndaşdır. O, xalqının sevinci ilə sevinən, kədərini ürəyində yaşadan, haqq söyləyən bir ziyalı kimi həmişə insanlar arasında olardı. 1990-cı ilin 20 Yanvar hadisələri zamanı bu hislər özünü daha qabarıq göstərdi. O, həmin dövrdə Azərbaycan Kommunist Partiyasının plenumunda Sovet İttifaqı rəhbərlərinin birinin qarşısında Qorbaçov komandasının "ermənilərin əlində oyuncaq" olduğunu söyləmiş, çəkinmədən onları "milli və siyasi xəyanətkarlar" adlandırmışdır. Kommunist Partiyası rəhbərlərinə etiraz və nifrət əlaməti olaraq 45 il sıralarında olduğu partiyadan çıxdığını bildirmişdir.

Görkəmli yazıçı dövrün reallıqlarını görür və dəqiq qiymətləndirirdi. Məhz buna görə də keçən əsrin 80-ci illərində xalqımızın tarixi, keçmişi ilə bağlı məsələlərdə ziyalı mövqeyindən çıxış edir, insanları tarixin dərslərindən ibrət götürməyə səsləyir, erməni təcavüzkarlarının əməlləri, tarixi hadisələr, faktlar barədə tutarlı fikirlər söyləyirdi. Bir deputat, vətəndaş kimi səmərəli fəaliyyət göstərirdi.

O, Azərbaycan xalqının iradəsinə, mətinliyinə inanırdı. "Xalqı qırmaqla onun iradəsini qırmaq olmaz" fikrində olan yazıçı öz çıxışları, bəyanatları, ağıllı kəlamları ilə xalqı azadlığa, düşmənə qarşı kəskin mübarizəyə həvəsləndirirdi.

O, bəzən dili ilə deyə bilmədiklərini qələmi ilə deyir, milli taleyimizlə, keçmişimizlə, adət-ənənələrimizlə bağlı fikirlərini yeni-yeni məqalələrə, mətnlərə, əsərlərə çevirirdi.

İsmayıl Şıxlı öz əsərlərində millətin ruhuna can verən, bu ruha ölməzlik gətirən, əbədilik qazandıran bir yazıçıdır. Əlbəttə, bu ruh xalqın səsidir, düşüncəsidir, dünyagörüşüdür, taleyidir və yazıçı Azərbaycan xalqının böyüklüyünü, mərdliyini, xeyirxahlığını, dostluğunu, vətənpərvərliyini öz əsərləri ilə hər bir oxucuya çatdırmaq, dünyaya bəyan etmək istəyirdi.

Milli ruh, milli məfkurə, milli adət-ənənələr və xalqın varlığına, keçmişinə sədaqət, ehtiram, hörmət hissi İsmayıl Şıxlı yaradıcılığının mayası, təməl daşıdır.

İsmayıl Şıxlı ədəbiyyata şeirlə gəlsə də, ancaq özünü nəsrdə tapıb və müasir ədəbiyyatımızda nəsrin ən görkəmli nümayəndəsi kimi şöhrətlənib. Yazıçının "Kerç sularında", "Dağlar səslənir", "Daşkəsən", "Ayrılan yollar", "Dəli Kür", "Ölən dünyam" və sair əsərləri ədibə ümumxalq məhəbbəti qazandırmışdır.

"Dəli Kür" romanı nəsrimizin şah əsərlərindən sayılır və yazıçı istedadının nələrə qadir olduğunu, səviyyəsini ortaya qoyur. Romandakı epoxal qarşıdurma, keçmiş və gələcəyin toqquşması zəminində ənənəçilik və yenilikçiliyin üz-üzə durması əslində, epos təfəkkürünə məxsusdur. Yadımıza salaq ki, epos mifoloji düşüncə ilə tarixi düşüncənin lövhələrini yaradan, hər iki düşüncənin detallarını özündə əks etdirən janr kimi ziddiyyətlərin, qarşıdurma və toqquşmaların təzahürüdür. Romanın əsas qəhrəmanı kimi Cahandar ağa özündə epos təfəkkürünə məxsus obrazların əlamət və davranışlarını yaşadır. Onun şəxsində bir sıra qarşıdurma detalları cəmlənmişdir. O, bir tərəfdən mühafizəkardırsa, keçmişin ifadəçisidirsə, digər tərəfdən mütərəqqi qərar və addımları ilə yeniliyə meyillidir. Cahandar ağa hər şeydən əvvəl, müəyyən dəyərlərin daşıyıcısıdır. Onun davranışını bu dəyərlər şərtləndirir. Dünyanın harmoniyası ilə bağlı onun təsəvvüründə bütöv bir konseptual yanaşma mövcuddur. O, ailə, namus, şərəf, kişilik, qeyrət və sair barədə görüşlərini fərdi olaraq özü üçün müəyyənləşdirməmişdir. Bu dəyərləri xalq yaddaşından hazır şəkildə qəbul etmişdir. Daha doğrusu, o, bu dəyərləri özündə əks etdirən canlı xalq yaddaşının daşıyıcısıdır.

Romandakı hadisələrin ilk növbədə Cahandar ağa obrazının xalqın ruhundan, milli təfəkküründən qaynaqlanması, əsərdəki hadisələrin, detalların, baxışların milli ruha köklənməsi "Dəli Kür"ü fərqləndirən, sevdirən başlıca cəhətdir. Oxucunu cəlb edən, cazibə dairəsinə salan, zaman-zaman düşündürən də məhz bu ruhun böyüklüyü, varlığı, daşıyıcılarıdır. Əlbəttə ki, İsmayıl Şıxlı özü xalq yaddaşının daşıyıcılarının, təbliğatçılarının öncüllərindən biri olmasaydı, ailə, namus, kişilik, ləyaqət kimi dəyərli keyfiyyətləri özündə birləşdirməsəydi, xalqın ruhunun aynası olan "Dəli Kür" kimi bir əsəri yarada bilməzdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Dəli Kür" romanı haqqında söylədiyi fikirlər əsəri səciyyələndirmək, İsmayıl Şıxlı yaradıcılığını qiymətləndirmək baxımından çox xarakterikdir: "İsmayıl Şıxlı koloritli xarakterlər və yüksək-mənəvi əxlaqi keyfiyyətlərə malik surətlərlə, zəngin yaradıcılığı ilə Azərbaycan xalqının bədii fikir salnaməsinə yeni parlaq səhifələr yazmış söz ustalarındandır. Ədibin məşhur "Dəli Kür" romanı ictimai şüurda dönüşə və özünüdərkə yol açan mühüm ədəbi-mədəni hadisə kimi qiymətləndirilmişdir. Sənətkarın klassik irsin ənənələrini davam etdirməklə və folklor xəzinəsindən bəhrələnməklə meydana gətirdiyi əsərlərdə dərin həyat fəlsəfəsi öz dolğun ifadəsini tapmışdır".

Azərbaycan nəsrinin qiymətli nümunələrindən olan "Dəli Kür" romanı ayrı-ayrı tarixi dövrləri, ictimai ziddiyyətləri, zamanın keşməkeşlərini, əlbəttə ki, milli psixologiyamızı, insani dəyərlərimizi, torpaq, vətən, xalq təəssübkeşliyimizi bədii dildə, real şəkildə əks etdirmək baxımından dəyərlidir və heç zaman öz qiymətini itirməyəcəkdir. Çünki roman elmi tədqiqata ən çox cəlb olunan, haqqında saysız-hesabsız məqalələr yazılan, mülahizələr gözlənilən əsərlərdəndir.

İsmayıl Şıxlının ədəbi, elmi, pedaqoji fəaliyyəti çoxsahəli və zəngindir. O, pedaqoq kimi bir çox dərsliklərin müəllifidir. Onun yazdığı "XVIII əsr xarici ədəbiyyat tarixi", "XIX əsr xarici ədəbiyyat tarixi" kitabları xarici ölkə klassiklərinin yaradıcılığını öyrənmək, təhlil etmək sahəsində hər bir oxucuya, tələbəyə yeni imkanlar yaradır.

Böyük yazıçı həyatda olduğu kimi, sənətdə də çox tələbkar, prinsipial idi. Ədəbiyyatda müasirlik problemlərinə, ədəbi tənqidə həsr olunmuş məqalələrində bu xüsusiyyətlər özünü aydın büruzə verir. Ədəbi tənqid onu daim düşündürmüş və bu sahədə vəziyyəti yaxşılaşdırmaq, yeni tənqidçi nəslin yetişməsi üçün o, əlindən gələni əsirgəməmiş, obyektiv mövqeyindən çıxış etmiş, yazıçıya keçmiş xidmətlərinə görə yox, yazdığı əsərin bədii keyfiyyətinə əsaslanıb qiymət verməyi tövsiyə etmişdir. Onun tənqidi məqalələri bu gün də aktuallığını itirməmişdir.

İsmayıl Şıxlı qeybətdən uzaq, sözü insanın üzünə deyən, daim haqqın tərəfində olan bir insan idi. O, şana-şöhrətə meyil etməz, təvazökarlığı ilə seçilərdi. Şəxsiyyətini daim uca tutar, sanbalını saxlayar, sözünün, hərəkətlərinin qiymətini bilərdi.

İsmayıl Şıxlının əsərləri bir çox xalqların dilinə tərcümə olunmuş və oxucular tərəfindən rəğbətlə qarşılanmışdır.

Sağlığında dövlət və xalq tərəfindən yazıçının xidmətləri yüksək qiymətləndirilmiş, o, bir çox orden və medallarla təltif edilmiş, fəxri adlara layiq görülmüş, mötəbər beynəlxalq tədbirlərdə Azərbaycanı təmsil etmişdir.

Ölümündən sonra da İsmayıl Şıxlının xatirəsi əziz tutulur. Adı əbədiləşdirilir, əsərləri çap olunur.

Azərbaycan Prezidenti İlham Əliyevin "İsmayıl Şıxlının 100 illik yubileyinin keçirilməsi haqqında" 28 yanvar 2019-cu ildə imzaladığı sərəncam unudulmaz yazıçıya olan hörmət və ehtiramın əyani ifadəsidir və bu, böyük şəxsiyyətin öz xalqının qəlbində əbədi yaşadığını sübut edir.

Bu günlərdə Azərbaycan Milli Kitabxanasının çap etdirdiyi "İsmayıl Şıxlı" biblioqrafik vəsaiti yazıçının xatirəsinə həsr olunmuş sanballı vəsaitdir. Kitabda ədibin həyat yolu, fəaliyyəti, yaradıcılığı, onun haqqında görkəmli şəxslərin fikirləri, yazılan dissertasiyalar və avtoreferatlar, xarici nəşrlər barədə geniş məlumatlar toplanmışdır.

Respublikamızın müxtəlif guşələrində, şəhər və rayonlarında keçirilən çoxsaylı tədbirlər yazıçıya olan ümumxalq məhəbbətindən xəbər verir. Əbədi ömür İsmayıl Şıxlıya həqiqətən də çox yaraşır.

***Tahir RZAYEV,***
***Milli Məclisin deputatı, filologiya üzrə fəlsəfə doktoru***




# Bolqarıstanın "Eurokom" xəbər portalı "Formula-1" yarışına geniş yer ayırıb



Bolqarıstanın "Eurokom" xəbər portalı Bakıda keçirilmiş "Formula-1" SOCAR Azərbaycan Qran-prisinə geniş yer ayırıb.

Saytda yerləşdirilən məqalədə bildirilib ki, Qran-prinin qalibi olan "Mercedes" komandasının finlandiyalı pilotu Valtteri Bottas bu mövsüm ikinci dəfə finiş xəttinə birinci çatıb. Pilot cari mövsümdə ilk qələbəsini Avstraliya Qran-prisində qazanıb. Azərbaycan Qran-prisində qalibiyyət finlandiyalı pilotun karyerasında beşinci qələbəsi olub.

Diqqətə çatdırılıb ki, V.Bottas "Formula-1" SOCAR Azərbaycan Qran-prisində 51 dövrəni 1 saat 31 dəqiqə 52,942 saniyəyə başa vuraraq qalib gəlib. O, pilotların yarışında 87 xalla birinci sıradadır. V.Bottasın komanda yoldaşı Lüis Hamilton 86 xalla ikinci, "Ferrari"nin almaniyalı sürücüsü Sebastyan Fettel isə 52 xalla üçüncü yerdə qərarlaşıblar.

# "Formula-1" Azərbaycan Qran-prisindən sonra pilotların cərimə balları



"Formula-1" yarışmasında 2014-cü ildən bəri müxtəlif pozuntulara görə pilotların hesabına yazılan cərimə balları sistemi fəaliyyət göstərir. Əgər 12 ay ərzində pilotlar 12 bal toplayarlarsa, o zaman onlar yarışdan kənarlaşdırılır. Bir ildən sonra alınan cərimə hesabdan silinir.

AZƏRTAC "Formula-1" Azərbaycan Qran-prisindən sonra cərimə ballarının statistikasından misal gətirir. Buna bənzər cəzanı Bakıda yalnız bir pilot - Daniel Rikkardo alıb. Lakin bu, onun hesabında il ərzində ilk xallardır. Gələn yürüşlər iki həftədən sonra təşkil ediləcək. Bu müddət ərzində ötən il Azərbaycan Qran-prisində alınan ballar qüvvəsini itirəcək. Cəriməyə məruz qalmış yürüşçülər isə üç nəfərdir: Sergey Sirotkin, Serxio Peres və Kevin Maqnussen.

# Ən sürətli pit-stopu "Ferrari" mexanikləri yerinə yetiriblər



Bakı yürüşləri zamanı "Ferrari" komandasının mexanikləri 2,27 saniyə ərzində Şarl Leklerin bolidinə xidmət etməklə ən sürətli pit-stopu yerinə yetiriblər.

AZƏRTAC xəbər verir ki, bu, italyan komandasının cari mövsümdə ilk qələbəsidir. Bundan əvvəlki üç mərhələdə ən sürətli pit-stopu "Red Bull Racing" komandasının mexanikləri icra ediblər. Lakin Azərbaycan Qran-prisində Maks Ferstappenin pit-stopu hətta ilk onluğa belə düşməyib.

Azərbaycan mərhələsində sürətinə görə ikinci pit-stopu "McLaren" komandasının mexanikləri yerinə yetiriblər. Onlar Karlos Sayntsın bolidinin təkərini 2,31 saniyə ərzində dəyişiblər. Bu göstərici üzrə üçüncü nəticəni (2,32 saniyə) Lüis Hamiltonun mexanikləri göstərib.

# Rumıniya KİV "Formula-1" SOCAR Azərbaycan Qran-prisindən yazır



Rumıniyanın geniş oxucu kütləsinə malik "Amosnews" xəbər agentliyi və "News24hours" informasiya portalı Bakıda keçirilmiş "Formula-1" SOCAR Azərbaycan Qran-prisi barədə AZƏRTAC-a istinadla məqalələr yayımlayıblar.

Məqalələrdə bildirilir ki, aprelin 28-də Bakıda "Formula-1" üzrə dünya çempionatının dördüncü mərhələsinin - SOCAR Azərbaycan Qran-prisinin əsas yarışı keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qran-prinin əsas yarışına baxıblar.

Qeyd olunub ki, Bakı trekinin uzunluğu 6 kilometr, ümumu məsafəsi isə 306 kilometrdir. Trekin ən geniş yerinin eni 13, ən dar hissəsinin eni isə İçərişəhər ətrafında, o cümlədən 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edir.

# Uik-end ərzində Bakı trasını 85 minə yaxın tamaşaçı ziyarət edib

Azərbaycan paytaxtında yürüş uik-endi başa çatdıqdan sonra Bakı Şəhər Halqasının icraçı direktoru Arif Rəhimov yarışın yekunlarını "F1News.ru"ya müsahibəsində şərh edib.

Arif Rəhimov deyib: "Prinsipcə mən məmnunam. Biz artıq az-çox yekunlaşdırdıq və belə məlum oldu ki, uik-end ərzində trası 85 minə yaxın tamaşaçı ziyarət edib. Bu, təxminən ötənilkinə bərabərdir, lakin onu nəzərə almaq lazımdır ki, biz indi üç deyil, iki konsert keçirmişik.

Bildiyiniz kimi, avtomobil idmanı mədəniyyəti bizdə yetərincə yeni sahədir. Biz düşünürdük ki, insanlar bəlkə də konsertlərə görə gəlirlər. Lakin biz konsertlərdən birini ixtisar etdik və gördük ki, bu, tamaşaçıların sayına təsir etmədi. Bu, o deməkdir ki, insanları bilavasitə mədəni proqram deyil, yürüşün özü cəlb edir".

# *Aleksandr SEROV:* "Mən təbiətən romantik adamam"



"Mən Azərbaycanı çox sevirəm. Bu ölkə dünyaya Müslüm Maqomayev, Rəşid Behbudov, Polad Bülbüloğlu kimi istedadları, digər görkəmli insanları bəxş edib.

Ölkənizin paytaxtı Bakı haqqında danışmaqla qurtarmaz. Bu, MBD-nin ən gözəl və qonaqpərvər şəhərlərindən biridir".

Rusiyalı müğənni Aleksandr Serov bu fikirləri Heydər Əliyev Mərkəzində solo konsertindən sonra jurnalistlərə müsahibəsində söyləyib.

Müğənni daha sonra deyib: "Mənim mahnılarımın əksəriyyəti sevgi haqqındadır, çünki mən təbiətən romantik adamam. Bu mahnıları ifa etməkdən böyük məmnunluq duyuram. Şadam ki, uzun illər boyu insanlar mənim yaradıcılığımı qiymətləndirirlər".

# Vətən sevdalı gənclər hərbi xidmətə həvəslə gedirlər

Ağcabədili gənclər də vətən qarşısındakı müqəddəs və şərəfli borclarını yüksək əhvali-ruhiyyə ilə yerinə yetirirlər. Rayonda hərbi xidmətdən yayınan bir nəfər belə yoxdur. Valideynlər öz övladlarını hərbi xidmətə çal-çağırla yola salırlar. Oğlu əsgər gedən ailədə məclis qurulur, süfrə açılır. Qohum-qardaş, dost-tanış gələrək əsgər gedən gəncə yaxşı yol arzulayır, xeyir-dua verirlər.

Səfərbərlik və Hərbi Xidmətə Çağrış Üzrə Dövlət Xidməti Ağcabədi rayon şöbəsinin rəisi polkovnik-leytenant Ruslan İsmayılovla söhbətimiz əsasən bu barədə oldu. O əvvəlcə qeyd etdi ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin müdrik və uzaqgörən siyasəti sayəsində Azərbaycan Ordusu regionun ən güclü və modern ordusuna çevrilmişdir. Qürur hissi ilə deyə bilərik ki, ordumuzu güclü, qüdrətli edən təkcə müasir silahlar deyil. Əsgərlərimizin ürəyi vətən sevgisi, torpaq məhəbbəti ilə döyünür. Onları güclü və yenilməz edən də vətən sevgisidir. Hərbi xidmətə yola saldığımız gənclərimizin də ən böyük arzusu torpaqlarımızı işğaldan azad etməkdir.

Qarabağ müharibəsində Ağcabədi rayonu 177 şəhid verib. Üç igid oğlu - Natiq Abdullayev, Etibar İsmayılov və Natiq Hüseynov göstərdikləri şücaətə görə Milli Qəhrəman adına layiq görülmüşlər.

Çağırışçı gənclərin ordu sıralarına yola salınması hər dəfə el şənliyi səviyyəsində qeyd olunur. Yolasalma mərasimlərinə dəvət olunan Qarabağ müharibəsi veteranları çağırışçılara məsləhətlər verir, xoş arzularını bildirirlər. Hərbi xidmətə çağırış sahəsində yaradılan şəffaflıq hər kəsdə məmnunluq doğurur. Hərbi xidmətə yola düşən Tahirin atası Elşad Abbasov dedi ki, oğlumu hərbi xidmətə yola salanda əvvəlcədən bilirdim ki, Daxili Qoşunlarda xidmət edəcək. Hərbi xidmətə çağırışla bağlı görülən tədbirlər, yaradılan şərait bir valideyn kimi məni də razı salır. Övladını əsgərliyə yola salan digər valideynlərdən də bu sözləri eşitdik: "Vətəni oğullar qorumalıdır. Bu müqəddəs borcu şərəflə yerinə yetirməkdə qoy Allah onlara yardımçı olsun. Arzumuz budur ki, hərbi xidmətə yola düşənlərin hamısı sağ gedib, salamat qayıtsınlar".

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Mayda bəzi günlərdə havanın temperaturu 33 dərəcəyə yüksələcək

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin verdiyi məlumata görə, mayda havanın orta aylıq temperaturunun iqlim normasına yaxın, bəzi yerlərdə isə normadan bir qədər yüksək olacağı gözlənilir. Aylıq yağıntının miqdarının əsasən iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər çox olacağı ehtimal edilir. Mayın birinci ongünlüyünün ortalarında hava şəraitinin bəzi yerlərdə fasilələrlə yağıntılı keçəcəyi gözlənilir.

Departamentdən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın orta aylıq temperaturunun 18-21° isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxın və bir qədər yüksəkdir. Havanın temperaturu gecələr 13-18°, gündüzlər 19-24°, bəzi günlərdə 27-32° isti olacaq. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı (norma 18-21 millimetr) gözlənilir.

Naxçıvan Muxtar Respublikasında havanın orta aylıq temperaturunun 16-20° isti olacağı gözlənilir ki, bu da iqlim norması daxilindədir. Havanın temperaturunun gecələr 10-15°, gündüzlər 19-24°, bəzi günlərdə 28-33° isti olacağı proqnozlaşdırılır. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı (norma 33-62 millimetr) bildirilir.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Daşkəsən və Gədəbəy rayonlarında havanın orta aylıq temperaturunun 11-15° isti olacağı gözlənilir ki, bu da iqlim norması daxilindədir. Havanın temperaturunun gecələr 5-10°, gündüzlər 13-18°, bəzi günlərdə gecə 13°, gündüz 21-26° isti olacağı bildirilir. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər çox olacağı (norma 68-122 millimetr) proqnozlaşdırılır.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında havanın orta aylıq temperaturunun 18-21° isti olacağı ehtimalı var. Bu da iqlim normasına yaxın və bir qədər yüksəkdir. Havanın temperaturunun gecələr 11-16°, gündüzlər 20-25°, bəzi günlərdə 27-32° isti olacağı gözlənilir. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı (31-54 millimetr) ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Xızı, Siyəzən, Şabran, Quba, Qusar, Xaçmaz rayonlarında havanın orta aylıq temperaturunun 14-19° isti olacağı proqnozlaşdırılır. Bu da iqlim normasına yaxın və bir qədər yüksəkdir. Havanın temperaturunun gecələr 8-13°, gündüzlər 16-21°, bəzi günlərdə 26-30° isti olacağı bildirilir. Aylıq yağıntının miqdarı iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər çox olacaq (norma 26-166 millimetr).

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında havanın orta aylıq temperaturu 19-22° isti olacaq. Bu da iqlim normasına yaxın və bir qədər yüksəkdir. Havanın temperaturunun gecələr 10-15°, gündüzlər 20-25°, bəzi günlərdə gecə 18°, gündüz 28-33° isti olacağı ehtimal edilir. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər çox olacağı (norma 26-62 millimetr) gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında havanın orta aylıq temperaturunun 15-19° isti olacağı bildirilir. Bu da iqlim normasına yaxın və bir qədər yüksəkdir. Havanın temperaturunun gecələr 10-15°, gündüzlər 18-23°, bəzi günlərdə 25-30° isti olacağı proqnozlaşdırılır. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər çox olacağı (norma 41-72 millimetr) ehtimalı var.


## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti dəftərxana mallarının satın alınması ilə əlaqədar

***açıq tender elan edir***

**Tender 1 LOT üzrə keçirilir:**

- **LOT 1 - Dəftərxana mallarının satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu AZ1110, Bakı şəhəri, Binəqədi rayonu, 6-cı mkr., Mirmahmud Kazımovski küçəsi, 134 (telefon: (012) 568-46-25) ünvanından ala bilərlər.

İştirak haqqı: **300 manat**

Satın alan təşkilat: **Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti**

**VÖEN: 1003853391**

**H/h: AZ41CTRE00000000000002947601**

**Dövlət Xəzinədarlığı Agentliyi**

**VÖEN: 1401555071**

**M/h: AZ41NABZ01360100000000003944**

**SWIFT: CTREAZ22**

Büdcə gəlirlərinin təsnifat kodu **- 142340**

Büdcə səviyyəsinin kodu **- 7**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *Tender təklifi dəyərinin **1** faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *Digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **7 iyun 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **18 iyun 2019-cu il saat 18:00-a** qədər **AZ1110, Bakı şəhəri, Binəqədi rayonu, 6-cı mkr., Mirmahmud Kazımovski küçəsi, 134** ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **19 iyun 2019-cu il saat 15:00**-da **Bakı şəhəri, Binəqədi rayonu, 6-cı mkr., Mirmahmud Kazımovski küçəsi, 134** ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilər.

***Tender komissiyası***



## B İ L D İ R İ Ş

*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi*

1. Digər maşın və avadanlıqların;
2. İnventarın;
3. Aparatın balansında olan avadanlıqların normal fəaliyyətini təmin etmək üçün periodik texniki xidmətin təşkili işlərinin

**kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.**

Maraqlanan təşkilatlar (012) 596 44 09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 07 may 2019-cu il saat 17:00 tarixədək qəbul olunur.

**Ünvan: Bakı şəhəri, Salatın Əsgərova, 85.**

***Tender komissiyası***


# Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində, Berd və Krasnoselsk rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Qazax rayonunun Qızılhacılı kəndində və adsız yüksəkliklərdə, Tovuz rayonunun Muncuqlu kəndində, Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub. Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Cəvahirli, Kəngərli, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Hesablama Palatasının rəhbərliyi və kollektivi Palata sədrinin köməkçisi Seymur Məmmədzadəyə atası **MALİK MƏMMƏDZADƏNİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı **MALİK MƏMMƏDZADƏNİN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

"Mətanət A" Şirkətlər Qrupunun Müşahidə Şurasının sədri Elxan Başirov və şirkətin kollektivi Adıgözəlovlar ailəsinə və yaxınlarına əzizləri **ŞİRXAN ADIGÖZƏLOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Daxili İşlər Nazirliyinin Daxili Təhqiqatlar İdarəsinin rəisi, polis general-mayoru Sahib Mirzəyev Adıgözəlovlar ailəsinə və yaxınlarına əzizləri **ŞİRXAN ADIGÖZƏLOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

General-mayor Nizaməddin Həmidov Adıgözəlovlar ailəsinə və yaxınlarına əzizləri **ŞİRXAN ADIGÖZƏLOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 9054
Sifariş 1446
Qiyməti 40 qəpik